## PREZİDENT İLHAM ƏLİYEVİN NÖVBƏTİ HUMANİST TƏŞƏBBÜSÜ

Xəbər verildiyi kimi, bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Prezident Sarayında şəhid ailələri ilə görüşüblər. Qeyd edək ki, dövlət başçısının və Birinci vitse-prezidentin şəhid ailələri ilə bu görüşü bir tərəfdən ölkəmizdə həyata keçirilən dərinməzmunlu sosial siyasətin təzahürüdür, digər tərəfdən isə ölkə rəhbərliyinin şəhid ailələrinə və müharibə əlillərinə xüsusi münasibətinin və qayğısının ifadəsidir. Tədbirdə çıxış edən Prezident İlham Əliyev bu görüşün keçirilməsi...



Bax səh. 4

## REGİONLARDA MÜASİR TƏHSİL İNFRASTRUKTURUNUN YARADILMASI İŞLƏRİ UĞURLA DAVAM ETDİRİLİR

Məktəb binasının su, qaz, elektrik xətləri, dam örtüyü, qapı-pəncərələri və döşəməsi yenilənib, isitmə sistemi qurulub, sinif otaqları, fənn kabinetləri, kitabxana, idman və akt zalları, dəhliz və digər yardımçı otaqlar, demək olar ki, yenidən tikilib. Hazırda təhsil ocağında son tamamlanma işləri görülür, ərazi abadlaşdırılır, futbol və voleybol meydançaları tikilir. Yaxın günlərdə məktəbdə inventar və avadanlıqların quraşdırılmasına başlanılacaq. Bu işlər başa çatdıqdan sonra məktəb binası tam yeniləşmiş vəziyyətdə...



Bax səh. 8




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 30 yanvar 2019-cu il, çərşənbə / № 019 (5394). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev: Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir




*Dövlətimizin başçısı regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda iştirak edib*



## Prezidentin iş günü

Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi üçün onun hüquqi bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev Lütvəli Babəli oğlu Babayevinin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev Sənan Əli oğlu Muxtarova "Əməkdar hüquqşünas" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

## Azərbaycan gənclərindən ibarət nümayəndə heyətinin Avropa Şurasına təhsil səfəri təşkil olunub

Strasburqda "Azərbaycan Respublikasının gənc mütəxəssislərinin Avropa Şurasına təhsil səfəri" adlı tədbir keçirilib. Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasından AZƏRTAC-a bildiriblər ki, tədbirin məqsədi iştirakçıları Avropa Şurasının gənclər siyasətindəki yeniliklərlə bağlı məlumatlandırmaq və ölkəmizlə əlaqələri daha da gücləndirmək olub. Səfərdə Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin məsləhətçisi Aydan Kərimli, Gənclər Fondunun gənclər təşkilatları ilə...

Bax səh. 6



## REGİONLARIN İNKİŞAFI ÜZRƏ DÖVLƏT PROQRAMININ İCRASININ YEKUNLARINA DAİR KONFRANS ÇƏRÇİVƏSİNDƏ SAHİBKARLARLA MÜZAKİRƏLƏR APARILIB

Yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı...

Bax səh. 5

## RADİKAL ÜNSÜRLƏR ANTİ-AZƏRBAYCAN DAİRƏLƏRİN SİFARİŞLƏRİNİ YERİNƏ YETİRİR

*Əli Kərimli kimi xəyanətkar şəxslər 1992-ci ilin qaragüruh psixologiyasını geri qaytarmağa çalışır*

Cənubi Qafqaz regionunun ən inkişaf etmiş ölkəsi olan Azərbaycanın son illərdə əldə etdiyi uğurlu inkişafın əsasında düzgün siyasətlə yanaşı sabitlik amili də dayanır. 1993-cü ilin iyununda Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra bərpa olunan sabitlik müasir, qüdrətli və iqtisadi cəhətdən inkişaf etmiş Azərbaycanda gəniş quruculuq prosesinin həyata keçirilməsinə imkan verdi. Bu gün müstəqil Azərbaycan qlobal miqyaslı layihələrin təşkilatçısı və iştirakçısı qismində çıxış etməklə dünya ölkələri və beynəlxalq birlik tərəfindən yaxın tərəfdaş qismində tanınır, qəbul edilir. Bu isə ölkəmizin iqtisadi inkişafı ilə yanaşı, digər məsələlərdə, ən əsası Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində mühüm rol oynayır. Təəssüf ki, ölkəmizin gündən-günə güclənməsi...

Bax səh. 7



## DAĞLIQ QARABAĞ BÖLGƏSİNİN AZƏRBAYCANLI İCMASININ İDARƏ HEYƏTİ ÖLKƏMİZDƏKİ DİPLOMATİK KORPUSUN NÜMAYƏNDƏLƏRİNƏ TƏQDİM EDİLİB

Yanvarın 29-da Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin...

Bax səh. 5

## *Cavanşir Paşazadə:* Azərbaycan dövlətinin, şəxsən cənab Prezidentin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz tərəfindən yüksək dəyərləndirilir



"Azərbaycanın ərazi bütövlüyü uğrunda öz canından keçmiş şəhidlərin ailələrinə, həmçinin müharibə əlillərinə dövlət tərəfindən böyük diqqət və...

Bax səh. 6

## Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə şəhid ailələrinə hərtərəfli diqqət və qayğı göstərilir

...Ümumiyyətlə, şəhid ailələrinə dövlət qayğısının göstərilməsi Azərbaycanın daxili siyasətində prioritetdir. Bu, Ümummilli lideri miz Heydər Əliyevin...



Bax səh. 7

## *Dmitri Savelyev:* Azərbaycan Prezidenti Davos Forumundan ölkənin uğurlarını nümayiş etdirmək məkanı kimi bacarıqla istifadə edir

İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunun işi başa çatıb. Dünyanın siyasi...



Bax səh. 6

## Avropa Parlamentinin ikili standartlarının daha bir nümunəsi

Məlum olduğu kimi Yerevanın Nubaraşrn təcridxanasında saxlanılan Haynews.am sartının rəhbəri və "Erməni qartalları: Vahid Ermənistan" partiyasının sədr müavini...



Bax səh. 7

## Ümid qəsəbəsi yeni sakinlərini qarşılayır

Azərbaycan Respublikası Prezidentinin təsdiqlədiyi "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na əsasən, Bakı şəhərinin...



Bax səh. 7

# Prezident İlham Əliyev: Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir

*Dövlətimizin başçısı regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda iştirak edib*






Yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Dövlətimizin başçısı konfransda giriş nitqi söyləyib: "Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası təmin edildi. Beş il bundan əvvəl qəbul edilmiş proqram artıqlaması ilə yerinə yetirildi. Son beş il ərzində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olundu. Üçüncü proqramın çox böyük əhəmiyyəti var. Bu proqram bizə imkan yaratdı ki, regionlarda əvvəlki illərdə aparılan islahatlara, görülən işlərə yeni təkan verək.

Bildiyiniz kimi, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramlarının qəbul edilməsi mənim 2003-cü ildə prezident seçkiləri ərəfəsində verdiyim vədlərimdən biri idi. O vaxt demişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə, regionların inkişafı ilə məşğul olacağam, bölgələrdə olan problemlərin həlli işində öz səylərimi əsirgəməyəcəyəm. 2004-cü ilin fevral ayında birinci proqram qəbul olundu və bu gün müzakirə etdiyimiz proqram sayca üçüncüdür.

Beləliklə, görülmüş işlər haqqında danışanda əlbəttə ki, biz son 15 il ərzində yerinə yetirilmiş işlərə nəzər salmalıyıq. Bu işlər həm real həyatda, həm rəqəmlərdə, həm də dəyişən, abadlaşan şəhərlərdə özünü göstərir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf etmiş, ümumi daxili məhsul 3,3 dəfə artmışdır. Bir daha demək istəyirəm, bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,6 dəfə artmışdır. İxracımız 4,7 dəfə, valyuta ehtiyatlarımız 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Yəni, bu, onu göstərir ki, Azərbaycan regionlarına və eyni zamanda, neft-qaz sektoruna, Bakı şəhərinin inkişafına böyük vəsait qoyulmasına baxmayaraq, biz öz valyuta ehtiyatlarımızı 24 dəfə artıra bilmişik. Bu, bizə imkan verir ki, gələcəyə çox böyük ümidlərlə baxaq. Azərbaycan iqtisadiyyatı bu gün dayanıqlı iqtisadiyyatdır.

Aparılan uğurlu siyasət ölkəmizə böyük həcmdə vəsaitin, sərmayənin yatırılmasına gətirib çıxardı. 15 il ərzində Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyuldu və bu sərmayənin yarısı xarici investisiyadır. Yəni, xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Azərbaycanda mövcud olan sərmayə iqlimi xarici investorları həvəsləndirir.

Bir faktı da diqqətinizə çatdırmaq istəyirəm. İlk dəfə Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında 2006-cı ildə qeyd olundu və o vaxt Azərbaycan 98-ci yerdə qərarlaşdı. Aparılan köklü islahatlar, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində son hesabatda Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Yəni, bu, deməyə əsas verir ki, bundan sonra da həm daxili, həm xarici investorlar Azərbaycana böyük həcmdə sərmayə qoyacaqlar. Beləliklə, bu sərmayə imkan verəcək ki, bundan sonra da iş yerləri, yeni müəssisələr yaradılsın və ölkəmiz inamla inkişaf etsin.

Son 15 il ərzində 2 milyon yeni iş yeri yaradılmışdır. Əhalinin sayı isə 1,6 milyon artmışdır. Bu da çox gözəl göstəricidir. Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər. Ancaq, əlbəttə, biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətlə getsin, artan əhali işlə təmin olunsun. Yeni iş yerlərinin yaradılması regionların sosial-iqtisadi inkişafı proqramlarının tərkib hissəsi idi və qeyd etdiyim kimi, 2 milyon iş yeri yaradılıb. Bu iş yerlərinin böyük hissəsi bölgələrin payına düşür. Kənd təsərrüfatı 1,7 dəfə artıb və əminəm ki, bundan sonra artım daha sürətli olacaq.

Bir sözlə, bizim bütün iqtisadi göstəricilərimiz deməyə əsas verir ki, Azərbaycan son 15 il ərzində çox uğurla, inamla inkişaf edib. Artan iqtisadi imkanlarımız bizə şərait yaratdı ki, sosial məsələlərə də çox böyük diqqət yetirək. Bir neçə rəqəmi səsləndirmək istərdim. Son 15 il ərzində maaşlar 7, pensiyalar 9 dəfə artıb. Son 15 ildə 3 min 200-dən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib, 640 tibb müəssisəsi tikilib və yenidən qurulub, bölgələrdə 44 olimpiya mərkəzi yaradılmışdır. Bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlüdür və əldə edilmiş gəlirləri biz, ilk növbədə, sosial sahələrə yönəldirik.

Məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzində olmuşdur, bu gün də belədir. Son illər ərzində yüzdən çox köçkün şəhərciyi tikilib, köçkünlərə təqdim edilib. Şəhid ailələri, müharibə veteranları, müharibə əlilləri üçün 6650 mənzil təqdim edilmişdir və bu proses davam etdirilir. Bu kateqoriyadan olan vətəndaşlar evlərlə təmin olunacaqlar. Yəni, Azərbaycan sosial sahəyə çox böyük diqqət göstərən ölkədir. Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.

Son 15 il ərzində dünyada müxtəlif proseslər gedib, dünya çox dəyişib. On beş il əvvəl vəziyyət tam fərqli idi, bu gün isə risklər, təhdidlər, münaqişə, müharibə ocaqları artır və bu meyil əfsuslar olsun ki, güclənir. Bizim bölgəmizdə, Yaxın Şərqdə, MDB məkanında, yaşadığımız regionda çox təhlükəli proseslər gedirdi və bu gün də gedir. Bu proseslər böyük fəlakətlərə gətirib çıxarıb. Milyonlarla insan müharibələrdən əziyyət çəkir. Milyonlarla insan həlak olub, yaralanıb, itkin düşüb, qaçqın-köçkün vəziyyətinə düşüb. Bəzi ölkələrin əksər hissələri tamamilə dağıdılıb. Bu, böyük humanitar fəlakətdir. Biz demək olar ki, hər gün kütləvi informasiya vasitələrində bunu izləyirik və bu meyil əfsuslar olsun ki, davam edir. Bütün bu mənfi mənzərə fonunda bizim hökumət öz inamlı dinamik inkişaf strategiyasını icra edərək ölkəmizi irəliyə aparır.

Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır. Yaxın tarix əyani şəkildə göstərdi ki, sabitlik pozulanda ölkələr çox pis vəziyyətə, idarəolunmaz vəziyyətə düşür, iqtisadiyyat çökür, sənaye iflic olur, insanlar əziyyət çəkir və sonra bu vəziyyətdən çıxmaq üçün onilliklər lazım olur. Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına hesablanıb. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır, öz maraqlarını tam şəkildə qoruyur.

Azərbaycanda aparılan iqtisadi, siyasi islahatlar, ölkəmizin güclənməsi bizə dünyada gedən riskli proseslərdən özümüzü qorumağa imkan yaratdı. Bir daha demək istəyirəm, bizim xarici siyasətimizin əsas məqsədi ondan ibarətdir ki, xaricdən gələn mümkün risklərin idarə olunmasına, azaldılmasına, aradan qaldırılmasına imkan versin. Biz buna nail oluruq. Son 15 il ərzində Azərbaycan xalqı əmin-amanlıq şəraitində yaşayır. Azərbaycan xalqı rahat yaşayır, qurur, yaradır. Hesab edirəm ki, hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə haqlı olaraq fəxr edə bilər.

Qeyd etdiyim kimi, biz 15 il ərzində biznes mühitinin yaxşılaşdırılması ilə bağlı böyük addımlar atdıq. Sahibkarlığın inkişafına böyük dəstək verdik. Təkcə güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb. Sevindirici hal ondan ibarətdir ki, dövlət büdcəsindən bu məbləğin cəmi bir milyard manatı ayrılmışdır. Qalan bir milyard manatdan çox vəsait verilmiş və qaytarılmış kreditlər hesabına yenidən kredit şəklində verilib. Beləliklə, biz kifayət qədər böyük maliyyə resursu yaratmışıq. Bu, bizə imkan verir ki, dövlət büdcəsinin yükünü azaldaq və gələcəkdə güzəştli şərtlərlə sahibkarlara maliyyə dəstəyi göstərək.

Sənayeləşmə prosesi uğurla gedir. Son vaxtlar sənaye parklarının fəaliyyətə başlaması geniş vüsət almışdır. İndi bu proses bir neçə şəhərdə gedir və sənaye parklarında bizim 67 rezidentimiz var. Onlardan 40-ı artıq fəaliyyətdədir.

Aqroparkların yaradılması çox müsbət hal kimi qiymətləndirilə bilər. Proqramda 51 aqroparkın yaradılması nəzərdə tutulub. Onlardan 17-si fəaliyyətdədir. Qalan aqroparkların işə düşməsi nəticəsində həm bölgələrdə yeni iş yerləri yaradılacaq, həm də kənd təsərrüfatı məhsullarımızın istehsalı və ixracı daha da artacaq.

Biz bu illər ərzində kosmik dövlətə çevrildik. Bu da bizim qürur mənbəyimizdir. Artıq üç peykimiz var. Azərbaycan nadir ölkələrdəndir ki, kosmik kluba daxil olubdur. Bu, həm innovasiyadır, həm biznesdir, həm də müasirlikdir. İnnovasiyalara gəldikdə, bu gün dünyada Azərbaycan məhsulu kimi tanınan "ASAN xidmət" brendi vardır. Bunu biz yaratmışıq, bizim daxili intellektual məhsulumuzdur və iradəmizin ifadəsidir. "ASAN xidmət" bu gün bir neçə ölkədə fəaliyyət göstərir və bu sistemi tətbiq edən ölkələrin sayı artmaqdadır. Ölkəmizdə on beş "ASAN xidmət" mərkəzi yaradılıb. Bu ilin sonuna qədər onların sayı 20-yə çatacaq. Bu mərkəzlərə 26 milyondan çox müraciət olunub. Əhali tərəfindən bəyənmə əmsalı təxminən 100 faizdir. "ASAN xidmət"də iki yüzdən çox xidmət göstərilir, tam şəffaf və heç bir pozuntusuz. Bu sahə, bildiyiniz kimi, həmişə böyük narahatlıq doğururdu. Vətəndaşlar haqlı olaraq şikayət edirdilər. İndi isə şikayətlər yoxdur, "ASAN xidmət"in yaradılması və uğurlu fəaliyyəti bizim siyasətimizi əks etdirir. Azərbaycanda hər şey şəffaf olmalıdır, hər şey qanun çərçivəsində olmalıdır. Bu, bir daha onu göstərir ki, vətəndaşlara xidmət bizim siyasətimizin əsas məsələlərindən biridir.

Əlbəttə ki, bizim iqtisadiyyatımızın əsas sahəsi neft-qaz sektorudur. Bu, bu gün belədir, əvvəl də belə olub və bundan sonra da belə olacaq. Biz sadəcə olaraq, çalışırıq ki, qeyri-neft sektorunu sürətlə inkişaf etdirək, buna nail oluruq. Ancaq hansı ictimai-siyasi formasiyada yaşamasına baxmayaraq, Azərbaycanda ilk neft tapılan dövrdən bu günə qədər bu, əsas iqtisadi potensial olub. Biz bu təbii resurslardan çox səmərəli şəkildə istifadə edirik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin işə düşməsi çox böyük tarixi hadisədir. Əgər bu layihələr icra edilməsə idi, biz bu qədər vəsait əldə edə bilməzdik. Çünki bizim ixrac imkanlarımız məhduddur, açıq dənizlərə çıxışımız yoxdur və bizə mütləq neft-qaz kəmərləri lazımdır. Bu kəmərlərin tikintisi həm maliyyə, həm siyasi, həm beynəlxalq əməkdaşlıq baxımından çox mürəkkəb və çətin bir layihələr idi. Biz bunu da bacardıq. Bu gün bu iki kəmər vasitəsilə resurslarımız dünya bazarlarına göndərilir. Hazırda Avropada ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizinin tikintisi sürətlə gedir. Dörd layihədən ibarət olan bu meqalayihə artıq son mərhələdədir. Dörd layihədən üçü istifadəyə verilib. Keçən il TANAP və Cənub Qaz Dəhlizinin açılışı olmuşdur və bunlar tarixi hadisədir.

Biz neftdən, qazdan əldə edilmiş gəlirləri nəqliyyat sektoruna yönəltdik ki, Azərbaycan nəinki bu bölgədə, Avrasiya məkanında nəqliyyat mərkəzinə çevrilsin. Bu gün biz artıq buna nail oluruq. Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi tarixi layihədir. Bu, həddindən artıq vacib layihədir. Çünki bu, artıq bizə imkan verir ki, Azərbaycan ərazisindən böyük həcmdə yüklər Şərqdən-Qərbə, Qərbdən-Şərqə göndərilsin. Bunun sayəsində həm bizim geosiyasi əhəmiyyətimiz artacaq, həm də biz bundan daim valyuta qazanacağıq. Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması da böyük önəm daşıyır. Bu istiqamətdə də böyük işlər görülür. Əlbəttə ki, bu işlərin görülməsi genişmiqyaslı beynəlxalq əməkdaşlıq tələb edir. Azərbaycan bu sahədə də təşəbbüskar kimi öz müsbət rolunu oynayıb. Bu gün Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində birləşən ölkələrin sayı 10-dan çoxdur və onların sayı daha da artacaq. Amma hər iki layihədə iştirak edən ölkə tək Azərbaycandır. Ona görə biz Avrasiyada çox strateji nəqliyyat mərkəzinə çevrilirik. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, bizim yol infrastrukturlarımız, müasir və müasirləşən infrastruktur, bütün bunlar son illər ərzində yaradılıb. Əgər biz infrastruktur layihələrinə diqqət yetirməsəydik, bu gün heç bir inkişafdan söhbət gedə bilməzdi.

On beş il bundan əvvəl biz özümüzü elektrik enerjisi ilə təmin edə bilmirdik. Ya xaricdən idxal edirdik, ya da ki ölkəmizin bəzi yerləri işıqsız qalırdı. Ötən 15 il ərzində 31 yeni stansiya tikilmişdir, 2500 meqavatlıq yeni güclər yaradılmışdır. Biz indi nəinki özümüzü təmin edirik, elektrik enerjisini ixrac edirik. Təbii qaz ilə təminat 15 il bundan əvvəl təxminən 50 faiz səviyyəsində idi, bu gün bu, 95 faizdir. İçməli su 26 faiz təmin edilirdi, bu gün bu, 70 faizdir. On beş il ərzində 15 min kilometr avtomobil yolu tikilib.

Yəni, görülmüş işlər haqqında danışmaq üçün saatlarla vaxt lazımdır. Sadəcə olaraq, əsas məqamları mən sizin diqqətinizə çatdırdım. Əminəm ki, bu gün çıxışlarda və müzakirələrdə həm görülmüş işlər, həm də görüləcək işlər haqqında danışacağıq və gələcək inkişaf planlarımızı təmin edəcəyik".

* * *

Sonra Neftçala Sənaye Məhəlləsində "Xəzər" avtomobil zavodunun direktoru Emin Axundov, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, "Naxçıvan Bağları" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Elçin Bağırov, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, Ağstafa rayonundakı "Saloğlu" mebel firmasının direktoru Tacəddin Mustafayev, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, İmişli rayonundakı "Muğan Aqroservis" iri toxumçuluq təsərrüfatının direktoru Rəcəb Orucov, Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov, "Hacıqabul Quşçuluq" MMC-nin direktoru Nemət Babaşov çıxış ediblər.

* * *

Dövlətimizin başçısı konfransda yekun nitq söyləyib: "Biz bu gün, eyni zamanda, görüləcək işlərlə bağlı fikirlərimizi bildirəcəyik. Proqramların uğurlu icrası deməyə əsas verir ki, onların qəbulu tam məntiqə uyğundur. Bizim iqtisadi göstəricilərimiz, bölgələrdə gedən quruculuq-abadlıq işləri bunun əyani sübutudur. Ancaq hələ də həll olunmamış məsələlər var. Hələ də elə məsələlər var ki, onların həlli üçün imkanlar olmayıb, yaxud da onların növbəsi gəlməyib. Biz isə görülmüş işlərlə kifayətlənməməliyik, daim qabağa baxmalıyıq. Baxmalıyıq ki, harada nə çatışmır, harada hansı məsələ öz həllini tapmalıdır.

Prinsip etibarilə, infrastrukturla bağlı bütün əsas məsələlər öz həllini tapıb. Ancaq bu proses davam etdiriləcək. Elektrik enerjisi ilə bağlı, qeyd etdiyim kimi, biz indi özümüzü tam təmin edirik, böyük həcmdə ixrac edirik. Ancaq yeni elektrik stansiyalarının tikilməsinə ehtiyac var. Çünki bizim sənaye potensialımızın, əhalimizin artımı, kənd təsərrüfatının inkişafı, böyük sənaye klasterlərinin yaradılması tələb edir ki, elektrik enerjisinin istehsalı artsın. Bu il biz Bakıda böyük elektrik stansiyasının açılışını planlaşdırırıq. 400 meqavat gücündə olan "Şimal 2" stansiyasının açılışı gözlənilir. Eyni zamanda, Bakı şəhərində yeni, 300, 350, bəlkə də 400 meqavat gücündə stansiyanın tikintisi ilə bağlı işlər aparılmışdır. İndi dəqiqləşmələr gedir və stansiyanın tikintisi bizim enerji potensialımızı daha da möhkəmləndirəcək. Bununla paralel olaraq, mövcud stansiyalarda bərpa və təmir işləri aparılaraq onların potensialını böyük dərəcədə artıra bilərik. İlkin hesablamalar göstərir ki, biz təqribən 500 meqavat əlavə güc əldə edə bilərik.

Beləliklə, əgər bu üç məsələ öz həllini taparsa, - mən əminəm ki, bu, belə də olacaq, - biz əlavə 1500 meqavat elektrik enerjisi istehsal edəcəyik və həm artan daxili tələbatımızı ödəyəcəyik, həm də ki, ixrac edib ölkəmizə valyuta gətirəcəyik. Bununla paralel olaraq, bərpaolunan enerji mənbələrinin yaradılması istiqamətində işlər getməlidir. İlk növbədə, su elektrik stansiyalarının, günəş və külək stansiyalarının tikintisi. İndi bu sahəyə xarici investorlardan maraq var. Dünya İqtisadi Forumu çərçivəsində keçirdiyim görüşlər bir daha onu göstərir ki, böyük şirkətlər bu sahəyə investisiya qoymağa hazırdırlar, bu barədə düşünürlər. Hesab edirəm ki, bu, çox müsbət bir haldır. Çünki bu gün bu sahədə yeni texnologiyalar yaradılıb və bu texnologiyalar səmərəliliyi böyük dərəcədə artırır. Hesab edirəm ki, yerli şirkətlər də bu işlərə mütləq fikir verməlidirlər.

Ölkədə qazlaşdırmanın səviyyəsi 95 faizdir. Ancaq, əlbəttə, bu, o demək deyil ki, bu, bizi qane edir. Elə kəndlər var ki, oraya hələ də qaz çəkilməyib. Ona görə bu proses davam etdiriləcək. Baxmayaraq ki, dünya miqyasında bu qədər qazlaşdırma aparan ölkələr o qədər də çox deyil. Yəni, biz son illər ərzində qazlaşdırma ilə bağlı əsas problemləri həll etdik. Əsas məsələ indi bu prosesi davam etdirmək və qazın keyfiyyətini artırmaqdır. Bəzi hallarda fasilələr baş verir, bəzi hallarda qaz lazımi həcmdə gəlmir. Bu məsələ daim diqqət mərkəzində olmalıdır ki, burada heç bir çatışmazlıq olmasın.

İçməli su layihələri davam etdirilir. Giriş sözümdə qeyd etdiyim kimi, təminat 70 faizə çatıb. Hazırda 38 şəhərdə içməli su layihələrinin icrası başa çatıb, bu il 5 şəhərdə başa çatacaqdır və 12 şəhərdə işlər artıq başlanıb, gedir və bir neçə şəhərdə hələ ki, başlanmayıb. Bu məsələlər daim gündəlikdədir və qəbul ediləcək dördüncü proqramda da öz əksini tapacaq.

Meliorativ tədbirlərin görülməsi prosesi davam etdiriləcək. Son iki il ərzində biz hər il 100 min hektar torpağa suyun verilməsini təmin etmişik. Bunların böyük hissəsi o torpaqlardır ki, heç vaxt suvarılmayıb, bir hissəsində suvarma olub, amma lazımi səviyyədə olmayıb. İlkin hesablamalara görə, bu il 80 min hektarda bu işlər aparılacaq. Bu, bizə imkan verəcək ki, məhsuldarlığı və suvarılan torpaqların həcmini artıraq. Bu, çox böyük rəqəmdir və fermerlər, əminəm ki, bunu hiss edirlər.

Son illərdə dörd böyük su anbarı tikilmişdir - Taxtakörpü, Şəmkirçay, Göytəpə, Tovuzçay. Onların tutumu 470 milyon kubmetrdir. Bir neçə anbarda tikinti və bərpa işləri aparılmışdır. Kiçik su anbarlarının tikintisi də gündəlikdə duran məsələlərdən biridir. Hər il dövlət vəsaiti ilə minimum 300 subartezian quyusu qazılır, bunun da çox böyük səmərəsi var.

Giriş sözümdə qeyd etdiyim kimi, 15 ildə 15 min kilometr avtomobil yolu çəkilmişdir və bu proses davam etdirilir. Builki Dövlət İnvestisiya Proqramına əsasən yüzlərlə kəndin yolları abadlaşdırılacaq, o cümlədən magistral yolların tikintisi təmin ediləcək. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir.

Sosial infrastrukturun yaradılması prosesi davam etdiriləcək. Baxmayaraq ki, 3272 məktəb tikilib və təmir edilib. Bu məktəblər mövcud məktəb fondunun 73 faizi deməkdir. Ancaq təmirə ehtiyacı olan məktəblər var və bu işlər də növbəti dövlət proqramında nəzərdə tutulacaq. Həmçinin xəstəxanaların, Olimpiya komplekslərinin tikintisi davam etdiriləcək. Təkcə bu il üç Olimpiya Kompleksinin açılışı gözlənilir. Bu da bölgələrdə idmanın inkişafına xidmət göstərir.

Bildiyiniz kimi, hər il 5 milyondan çox insan pulsuz tibbi müayinədən keçir. Bu da bizim təşəbbüsümüzdür, çox müsbət təşəbbüsdür. Hazırda bizdə vətəndaşların tibbi müayinədən keçmələri üçün hər bir yerdə müasir avadanlıq quraşdırılmış xəstəxanalar var. Bu da çox ciddi sosial layihədir və Azərbaycan bu sahədə də gözəl nümunə göstərir.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Keçən il 5800 köçkün ailəsi üçün evlər tikilibdir, o cümlədən 1000 ailə üçün özəl sektor evlər tikib. Mən bu təşəbbüsü alqışlayıram. Bu il bu proses davam etdiriləcək. İlkin hesablamalara görə, ən azı 5000 ailə üçün evlər tikiləcək, o cümlədən yenə də özəl sektorun çox ciddi payı ilə.

Şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin problemləri də həll olunur. Keçən il 626 şəhid və Qarabağ müharibəsi əlilinin ailəsinə evlər verildi. Bu il isə 800 ailəyə ev veriləcək. Növbəti illərdə bu proses davam etdiriləcək ki, bütün şəhid ailələri, Qarabağ müharibəsi əlilləri evlərlə təmin olunsunlar. Bu günə qədər bu qəbildən olan 6650 ailə ev alıb.

Keçən il 118 min yeni iş yeri yaradılmışdır. Bu, yaxşı rəqəmdir. İş yerlərinin yaradılması daimi proses olmalıdır və bu sahədə əlbəttə ki, özəl sektor əsas rol oynamalıdır. Dövlətin dəstəyi ilə verilən hər bir kreditin tərkibində mütləq məruzə olunanda nə qədər iş yeri yaradılacaq məsələsi də vardır. Məşğulluğun artırılması çox ciddi məsələdir. Bəzi ölkələrdə əhali artmır, bəzi ölkələrdə əhali azalır, Azərbaycanda isə əhali artır. Mən qeyd etdim ki, son 15 il ərzində əhalimizin sayı 1,6 milyon nəfər artmışdır. Bu, əlbəttə ki, bizdən çox ciddi iş tələb edir. Bir daha demək istəyirəm ki, iş yerlərinin yaradılması prioritet məsələlərdən biridir. O bölgələrdə ki, işsizlik var, biz o bölgələrdə işsizliklə mübarizə aparmaq üçün ictimai işlər açmışıq. Bir neçə ildir ki, bu təşəbbüs reallaşır və ictimai işlərdə minlərlə insan işləyir və əməkhaqqı alır.

Əlbəttə ki, son illərdə bir çox müəssisələr yaradılıb və orada iş yerləri açılıb. Sahibkarlara tövsiyəm ondan ibarətdir ki, iş yerlərini ixtisar etməsinlər. Çünki bu gün dünyada ümumi meyil ondan ibarətdir ki, daha çox texnologiyalara üstünlük verilir, elmi-texniki tərəqqi yeni texnologiyalar ortaya çıxarır, robotlar insanları əvəzləyir, bütün bunlar reallıqdır. Biz bu reallıqla hesablaşmalıyıq. Ancaq, eyni zamanda, biz Azərbaycanda mütləq iş yerlərini qorumalıyıq - həm dövlət qurumlarında, həm özəl sektorda. Dövlət qurumlarında aparılan struktur islahatları, -

**davamı 3-cü səhifədə**

# Prezident İlham Əliyev: Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir

*Dövlətimizin başçısı regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda iştirak edib*

əvvəli 2-ci səhifədə

bütün dövlət qurumlarına artıq bildirilib, - iş yerlərinin ixtisarına gətirib çıxarmamalıdır. Bu struktur islahatları, sadəcə olaraq, idarəetmə mexanizminin təkmilləşməsinə yönəlib. Əlbəttə, dövlət müəssisələrində işləyən vətəndaşlar öz işlərində qalacaqlar. Özəl sektor da heç bir ixtisar aparmamalıdır, əksinə, dövlətin bu qədər dəstəyi müqabilində daha çox iş yerləri açmalıdır. Yenə də deyirəm, bu istiqamətdə proses müsbət gedir. Keçən il 118 min daimi iş yeri yaradılıb və təbii ki, bu, özəl sektorda yaradılmış iş yerləridir.

Özünüməşğulluq proqramının icrası böyük ümidlər verir. Bu il 7 min ailə bu proqramla əhatə olunacaq. Baxarıq, imkan olarsa, daha çox ailə bu proqramla əhatə olunacaq. Beləliklə, hələ ki, iş tapa bilməyənlər özünüməşğulluq hesabına ailə büdcəsini təmin edəcəklər.

Ailə Biznesinə Asan Dəstək - "ABAD" mərkəzləri yaradılır. Bu da çox müsbət haldır. Mən bu mərkəzlərin açılışında olmuşam və bu, "ASAN xidmət"in bir qoludur və çox müsbət təşəbbüsdür. Ailə biznesi bir istiqamət kimi Azərbaycanda, hesab edirəm ki, geniş vüsət ala bilər və almalıdır. Dövlət öz dəstəyini mütləq göstərir və göstərəcək. "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti ilə bağlı mən giriş sözümdə öz fikirlərimi bildirdim. Bu il 5 mərkəzin açılması nəzərdə tutulur.

Yerli icra orqanları vətəndaşlara daim diqqət və qayğı göstərməlidirlər. Yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlar üçün çalışırlar, yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlara xidmət edirlər. Bütün dövlət məmurları - Prezidentdən başlayaraq lap aşağı səviyyəli məmura qədər hər kəs bilməlidir ki, bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir. Yerli icra orqanları diqqətli olmalıdırlar, problemləri həll etməlidirlər. Hansı problemləri özləri həll edə bilmirlərsə, mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına məlumat verməlidirlər ki, biz problemləri operativ qaydada həll edək. Biz problemləri həll edə bilərik və əlbəttə ki, buraxılan nöqsanlar tamamilə aradan qaldırılmalıdır.

Regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının tərkibi, əsasən, yerlərdən gələn xahişlər nəticəsində formalaşıb. Mənim bölgələrə çoxsaylı səfərlərim və vətəndaşlarla söhbətlərim bu sahədə çox gözəl bir ünsiyyət yaradıb. Çünki vətəndaşların təklifləri mütləq nəzərə alınır və bölgələrdə bir çox layihələr məhz vətəndaşların təklifləri əsasında reallaşıb. Ona görə daim bu təmas olmalıdır və var ki, insanları narahat edən, bu gün hələ həllini tapmayan məsələlər həll olunsun. Bizim buna imkanımız da, iradəmiz də var.

Sahibkarlıqla bağlı siyasətimiz davam etdiriləcək. Sahibkarlara dövlət tərəfindən böyük dəstək verilir - həm mənəvi dəstək, siyasi dəstək, maddi dəstək. Fermerlərə kreditlər, subsidiyalar verilir. Bu sahədə də təkmilləşmə gedəcək, texnika, gübrələr, yanacaq güzəştli şərtlərlə verilir. Bu sahədə də Azərbaycan nadir ölkələrdəndir ki, öz sahibkarına, öz fermerinə bu qədər diqqət göstərir. Əlbəttə ki, biz sahibkarlardan daha böyük nəticələr gözləyirik. Gözləyirik ki, onlar bundan sonra da ölkə iqtisadiyyatına öz töhfələrini verəcəklər.

Kənd təsərrüfatı və sənaye istehsalı dördüncü proqramda xüsusi yer tutur. Əlbəttə, infrastruktur layihələri də diqqətdədir. Ancaq qeyd etdiyim kimi, onların böyük hissəsi başa çatıb, yaxud da ki, başa çatacaq. Ona görə iqtisadiyyatın real sektoru, kənd təsərrüfatı, sənaye potensialının gücləndirilməsi əsas məsələlərdən biridir. Müxtəlif mexanizmlər işə salınıb, müxtəlif təşəbbüslər irəli sürülüb. Onlardan biri investisiya təşviqi mexanizmidir. Biz bu məsələni həll etməyə başlayandan sonra çox gözəl nəticələrlə üzləşdik. İnvestisiya təşviqi proqramı üzrə 107 layihə həyata keçirilib. Ümumiyyətlə, 332 layihənin icrası nəzərdə tutulub. Bu layihələrin həyata keçirilməsinə qoyulacaq sərmayə 2,8 milyard manatdır. Yəni, əgər investisiya təşviqi mexanizmini biz işə salmasaydıq, bu vəsait də qoyulmazdı. Bu layihələr çərçivəsində əlavə 12 min yeni iş yeri açılacaqdır.

Sənaye potensialının inkişafı üçün, əlbəttə, sənaye zonalarının, sənaye parklarının çox böyük rolu var. Azərbaycan indi müasir sənaye mərkəzinə çevrilibdir. Bu sahədə görüləcək işlər əminəm ki, ölkəmizin qeyri-neft sektorunun inkişafını təmin edəcək, qeyri-neft ixracının həcmini böyük dərəcədə artıracaq.

Əlbəttə ki, neft sənayesində də işlər daim diqqət mərkəzindədir. Giriş sözümdə qeyd etdim, burada böyük meqalayihələr icra edilir. Ancaq bununla paralel olaraq, daxili istehsal, yəni, SOCAR tərəfindən neft və qaz hasilatı sabit qalmalıdır. Keçən il Azərbaycanda 38,8 milyon ton neft və 30 milyard kubmetr qaz hasil edilib, böyük layihələr icra olunub. Əminəm ki, 2020-ci ildə istifadəyə verilməsi nəzərdə tutulan "Cənub Qaz Dəhlizi" layihəsinin icrası bizə əlavə böyük gəlir gətirəcək.

Əlbəttə ki, sənaye sahəsində bizim diqqətimiz, eyni zamanda, qeyri-neft sektoruna yönəlib. Bu sahədə də yaxşı nəticələr var. Keçən il qeyri-neft sənayemiz 9,1 faiz artıb. Bu, onu göstərir ki, həmin sahədə işlər yüksək səviyyədə aparılır. Sumqayıt Kimya Sənaye Parkı, Sumqayıt Texnologiya Parkı, Mingəçevir Yüngül Sənaye Parkı, Gəncə şəhərində sənaye müəssisələrinin, Neftçala, Hacıqabul, Masallı, Sabirabad sənaye məhəllələrinin yaradılması bu sahədə atılan çox ciddi addımlardır. Gələcəkdə digər şəhərlərdə də sənaye zonaları yaradılacaqdır.

Biz son vaxtlar ənənəvi xalçaçılıq sənətinin inkişafı ilə bağlı çox ciddi iş aparırıq. Artıq 20 xalça fabriki fəaliyyətdədir. Hər fabrikdə orta hesabla 100, yaxud 150 iş yeri yaradılır, xüsusilə qadınlar üçün. Mən fabriklərin əksəriyyətinin açılışlarında iştirak etmişəm və görmüşəm ki, buna nə qədər böyük ehtiyac var. Bu, qadınları işlə təmin etmək, qədim milli sənətimizi yaşatmaq üçün çox düşünülmüş bir addımdır. Bütövlükdə isə bizdə 31 xalça fabrikinin tikilməsi nəzərdə tutulur və burada təqribən 5 minə yaxın iş yeri açılacaq. Bu il Sumqayıt şəhərində əyirici boyaq fabrikinin açılışı gözlənilir. Beləliklə, biz artıq xalça istehsalında xarici xammaldan asılılığı aradan götürəcəyik.

İplik və hazır tekstil fabriklərinin tikilməsinə də ehtiyac var. Bizdə iplik fabrikləri var. Verilən məlumata görə, tədarük edilən pambığın təxminən 50 faizi artıq Azərbaycanda emal olunur və bu, əlavə dəyər yaradır. Bu, çox yaxşı haldır. Ancaq sahibkarlar bilməlidirlər ki, potensial daha böyükdür. Azərbaycanda pambıq istehsalı artır. Ona görə hesab edirəm ki, sahibkarlar iplik fabriklərinin tikilməsinə çox ciddi baxmalıdırlar. Bu, çox gəlirli və ölkəmiz üçün çox faydalı bir işdir. Eyni zamanda, ipəkçiliyin inkişafı ilə bağlı çox ciddi addımlar atılır. Artıq Qax rayonunda Damazlıq Baramaçılıq Mərkəzi yaradılır. Bu da imkan verəcək ki, biz idxaldan asılılığı azaldaq və gözəl bir zəncir yaradaq, tingdən hazır ipək parçasına qədər. Yenə də dövlət əsas işi öz üzərinə götürüb. Ancaq sahibkarlar da mütləq bu sahəyə maraq göstərməlidirlər. Hesab edirəm ki, bu, onlar üçün faydalı ola bilər.

Ölkəmizdə yeni meyvə-tərəvəz emalı müəssisələrinin yaradılmasına ehtiyac var, bunu xüsusilə qeyd etmək istəyirəm. Çünki meyvə və tərəvəz istehsalı artır. Biz bunu daha çox meyvə-tərəvəz kimi ixrac edirik. Ancaq xarici bazarlarda emal olunmuş məhsullara da böyük tələbat var.

Biz kənd təsərrüfatında islahatları dərinləşdirməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da mütləq ciddi iş aparmalıyıq, bu, prioritet məsələdir. Məhsuldarlığın artırılması istiqamətində işlər görülür. Hesab edirəm ki, bu, yaxın gələcəkdə özünü göstərəcək. Biz kənd təsərrüfatı məhsullarının ixracını artırmalıyıq. Düzdür, son 15 il ərzində kənd təsərrüfatı məhsullarının ixracı təxminən 6 dəfə artıb. Ancaq potensial da böyükdür və biz yeni bazarlara çıxmalıyıq. Ticarət evləri açılır, ixrac missiyaları göndərilir, dövlət tərəfindən sahibkarlara çox böyük dəstək verilir ki, onlar öz məhsullarını xaricdə sata bilsinlər. Əlbəttə ki, aqroparkların da çox böyük əhəmiyyəti var. Artıq 250 min hektarda 51 aqropark yerləşir. Əlbəttə ki, bu torpaqlarda əvvəllər ya iş getmirdi, ya da çox ləng gedirdi.

Kənd təsərrüfatı məhsulları ilə bağlı bəzi rəqəmləri gətirmək istərdim. Misal üçün, taxılçılıqda 2004-cü ildə 2 milyon ton məhsul yığılmışdı, keçən il 3 milyon 200 min ton. Yəni, artım yaxşıdır. Xüsusilə iri fermer təsərrüfatlarında və aqroparklarda məhsuldarlıq hektardan 50 sentnerə bərabərdir. Bəzi yerlərdə daha çoxdur. Çox gözəl göstəricidir. Bu, Avropanın inkişaf etmiş ölkələrinin səviyyəsində olan göstəricidir. Ancaq hektardan orta məhsuldarlıq təxminən 29-30 sentnerdir.

Bizdə buğdanın məhsuldarlığı ilə bağlı cədvəl qarşımdadır. Dörd rayon - Saatlı, Bərdə, Tərtər, Sabirabad hektardan 40 sentnerdən çox məhsul götürüb. 28 rayon 30 sentnerdən 40 sentnerə qədər. Qalan rayonlar isə 30 sentnerdən az tədarük ediblər. Bu cədvəllər İqtisadiyyat Nazirliyi və Prezident Administrasiyası tərəfindən hazırlanıb, var və indi sizə veriləcək. Sahibkarlar bu cədvəllərə baxsınlar və biz də buna fikir verməliyik ki, hansı rayonlarda məhsuldarlığı necə artıra bilərik.

Məlumat üçün bildirim ki, dünya üzrə hektardan orta məhsuldarlıq 34 sentnerdir, Azərbaycanda 30, Avropa İttifaqında 53 sentnerdir. Bizdə iri fermer təsərrüfatlarında 50 sentnerdir. Biz Avropa İttifaqının səviyyəsinə çatmışıq, ancaq iri fermer təsərrüfatlarında.

Heyvandarlıqla bağlı bəzi rəqəmləri gətirmək istərdim. 2004-cü ildə 196 min ton ət tədarük edilmişdir, keçən il 326 min ton. Bu sahədə də artım var. Cins mal-qaranın idxalı təmin edilir, süni mayalanma mərkəzi fəaliyyət göstərir. Hesab edirəm ki, bu sahədə irəliləyiş sürətli olacaq. Biz növbəti 5 il ərzində mal ətinin istehsalını 15 faiz artırmalıyıq.

Süd istehsalı 2004-cü ildə 1 milyon 200 min ton, 2018-ci ildə 2 milyon ton olub. Burada da artım çox böyükdür. Biz hələ də özümüzü süd və süd məhsulları ilə tam təmin edə bilmirik. Növbəti 5 ildə görüləcək işlər nəticəsində süd istehsalı təxminən 15-20 faiz artmalıdır.

Quş əti - 2004-cü ildə 44 min ton istehsal olunub, keçən il 109 min ton. Tərəvəz - 2004-cü ildə 1 milyon ton, keçən il 1 milyon 500 min ton istehsal olunub. Ən çox valyuta gətirən kənd təsərrüfatı məhsulları - pomidor 177 milyon dollar, xurma 114 milyon dollar, pambıq və pambıq məmulatları 108 milyon dollar, fındıq 100 milyon dollara yaxın və alma 38 milyon dollar.

Meyvə istehsalı 2004-cü ildə 420 min ton, 2018-ci ildə bir milyon ton olub. Yəni, artım iki dəfədən çoxdur. Bütün bu məlumatları mən sahibkarlara və ictimaiyyətə ona görə verirəm ki, onlar bilsinlər nə qədər artım olub və bizim hələ artıma nə qədər ehtiyacımız var. Biz bazarlara çıxışı dövlət dəstəyi ilə təmin edirik.

Bildiyiniz kimi, son vaxtlar fındıqçılığa çox böyük diqqət yetirilir. Biz fındıq bağlarının sahəsini qısa müddətdə böyük dərəcədə artırmışıq. 2016-cı ildə bizim 40 min hektar fındıq bağlarımız olub, bu gün artıq 75 min hektara çatıb və bu il 9 min hektar da əkiləcək. Beləliklə, biz 84 min hektarda fındıq yetişdirəcəyik. Əlbəttə, yeni salınan bağlar bar gətirənə qədər bir neçə il keçəcək. Amma ondan sonra fındıq ixracının həcmi iki dəfədən çox artacaq və fermerlərə indikindən iki dəfə çox vəsait gələcək. Hazırda fındıqçılıqda 20 min nəfər işləyir.

Son vaxtlar badam və qoz bağlarının salınması geniş vüsət almışdır. Bu məhsullar da çox gəlirlidir və ixracyönümlüdür. Azərbaycanda badam və qoz emalı fabriklərinin tikintisi mütləq nəzərdə tutulmalıdır. Sahibkarlara məsləhət görürəm ki, bu işlə məşğul olsunlar. Eyni zamanda, xüsusilə Bakı, Abşeron və digər bölgələr üçün ənənəvi olan zeytunçuluğun inkişafı da sürətlə gedir. Yeni zeytun bağlarının salınması geniş vüsət almışdır.

Pambıqçılıqda çox ciddi dönüş yaradılıb. Müqayisə üçün bildirməliyəm ki, 2015-ci ildə cəmi 35 min ton pambıq tədarük edilmişdir, keçən il isə 233 min ton. Görün, biz nə qədər böyük irəliləyiş əldə etmişik. Pambıqçılığın bütün sahələrində 190 min insan işləyir. Məhsuldarlıq bizdə hələ ki, lazımi səviyyədə deyil. Hektardan orta məhsuldarlıq 17,4 sentnerdir. Bu, prinsipcə, bizi qane edə bilməz, biz məhsuldarlığı artırmalıyıq. Ancaq bu məhsuldarlıq orta məhsuldarlıqdır. Harada ki, işlərə ciddi yanaşırlar, məhsuldarlıq yüksəkdir. Məlumat üçün bildirməliyəm ki, "MKT" təşkilatının pambıq tarlalarında məhsuldarlıq hektardan 27 sentnerdir, "Azərpambıq"da 19, amma digər kiçik təsərrüfatlarda aşağıdır. Ona görə bu, orta məhsuldarlığı da aşağı salır. Ona görə bu sahədə də təftiş aparılmalıdır. Pambıqçılıq üçün yararlı torpaqlar seçilməlidir və harada məhsuldarlıq aşağıdır, orada başqa məhsullar yetişdirilməlidir. Dövlət xətti ilə 470 pambıqyığan kombayn və pambıqçılıq üçün 12 minə yaxın texnika alınmışdır.

Tütünçülükdə də çox ciddi irəliləyiş var. Tütün 2015-ci ildə cəmi üç rayonda əkilirdi. Tütünçülük demək olar ki, artıq sıradan çıxırdı. Cəmi üç rayonda 3400 ton, keçən il artıq 13 rayonda 6200 ton tütün yığılıb. Bu sahəyə də dövlət dəstək göstərir. Qurutma kameraları, tədarüklə bağlı texnika - bütün bunları dövlət təmin edir. Cəmi 3 il ərzində tütünçülükdə 9500 nəfər işlə təmin olunub. Yenə də deyirəm, əgər dövlət öz dəstəyini göstərməsəydi, real yardım etməsəydi, bu sahələr bu qədər inkişaf edə bilməzdi. Mənim sədrliyimlə tütünçülüklə bağlı xüsusi müşavirə keçirildi. Bütün tapşırıqlar o müşavirədə verilmişdir və onlar icra edilir.

Baramaçılıq üzrə də müşavirə keçirilmişdir. Burada mənzərə, ümumiyyətlə, çox maraqlıdır. Sovet vaxtında baramaçılığın çox böyük ənənələri olub. Xüsusilə Heydər Əliyevin təşəbbüsü ilə bir çox rayonlarda barama istehsalı ən yüksək səviyyədə idi. Ancaq 2015-ci ildə biz gördük ki, cəmi bir rayonda barama tədarük edilir, özü də 230 kiloqram. Qısa müddət ərzində çox ciddi tədbirlər görüldü. Keçən il 38 rayonda artıq 513 ton barama tədarük edildi. Biz barama tədarükünü 230 kiloqramdan 513 tona çatdırdıq. Bu il 800 ton planlaşdırılır. Əlbəttə ki, Şəkidəki ipək kombinatının daha böyük həcmlə işləməsi, orada daha çox sayda iş yerlərinin yaradılması üçün bu, əsas şərtdir. Təkcə keçən il 2 milyon 600 min tut tingi əkilmişdir.

Digər sahələr üzrə də işlər gedir. Mən çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirə keçirmişəm. Bu sahədə də irəliləyiş var. Arıçılığın da həm daxili bazar, həm də ixrac üçün çox böyük potensialı var. Bizim balımız çox keyfiyyətlidir, xarici bazarlarda yüksək qiymətləndirilir. Biz indi həm ailə biznesi çərçivəsində arıçılığa dəstək oluruq, həm də ki, subsidiyalar verilir, bu yaxınlarda artırılıbdır. Arıçılığın böyük perspektivləri var, bu, çox gəlirli sahədir. Fermerlər, vətəndaşlar üçün çox gözəl nəticələr verə bilər.

Üzümçülük, şərabçılıq. 2004-cü ildə 55 min ton üzüm yığılmışdır, keçən il 167 min ton, yəni, 3 dəfə çox. Burada da dövlət dəstəyi, əlbəttə ki, ön plandadır. Üzümçülüyün, şərabçılığın Azərbaycanda çox böyük ənənələri var idi. Ancaq sovet dövründə, 1980-ci illərin sonlarında sovet rəhbərliyinin və Azərbaycandakı rəhbərlərin birgə bəd əməlləri nəticəsində üzüm bağlarımızın demək olar ki, qırılması prosesi başlamışdır. Əksər bağlar məhv edilib. Onların bərpası, əlbəttə ki, böyük vəsait və zəhmət tələb edir. Üzüm çoxillik bitkidir. Ona görə üç dəfə artım, əlbəttə ki, çox yaxşı nəticədir. Şərab istehsalı isə 15 il ərzində 5 dəfə artıb.

Əlbəttə ki, regionların sosial-iqtisadi inkişafı məsələlərinə baxanda biz mütləq ekoloji vəziyyətə nəzər salmalıyıq. Biz ekoloji vəziyyəti yaxşılaşdırmalıyıq, ekoloji tarazlığı pozan amillərdən özümüzü qorumalıyıq. Bu sahədə son illər ərzində işlər aparılıb. Hesab edirəm ki, bu məsələ daim diqqət mərkəzində olmalıdır. Xüsusilə Bakıda, Sumqayıtda, digər böyük şəhərlərdə ekoloji tarazlığı pozan müəssisələrə çox ciddi xəbərdarlıq edilməlidir ki, onlar təmizləyici cihazları quraşdıraraq havanın çirklənməsinin qarşısını alsınlar. Bu, çətin məsələ deyil. Ekologiya ilə bağlı digər məsələlər də öz həllini tapmalıdır.

Dəmir yolu layihələri ilə bağlı mən giriş sözümdə qeyd etdim. Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri fəaliyyətdədir, bu işlərə yeni tərəfdaşlar qoşulur. Mənim bir neçə ölkənin dövlət başçısı ilə apardığım danışıqlar nəticəsində indi Orta Asiya respublikalarından əlavə yüklərin Ələt limanına gəlməsi və oradan dəmir yolu ilə dünya bazarlarına çatdırılması təmin edilib. Biz bir neçə ölkə ilə artıq çox səmərəli əməkdaşlıq edirik. Bu ölkələrin sayı artır və biz yeni mənbələrdən yükləri cəlb edib Azərbaycan ərazisindən göndəririk. Ölkə daxilində bir neçə dəmir yolu layihəsi gündəlikdədir. Biz Şimal-Cənub nəqliyyat dəhlizinin bərpası ilə məşğuluq. Düzdür, bu yol var, fəaliyyət göstərir, ancaq bunun sürəti aşağıdır. Ona görə Yalamadan Astaraya qədər yeni dəmir yolu xətləri çəkilməlidir. Artıq keçən ildən bu prosesə start verilib və beləliklə, Azərbaycan-Rusiya və Azərbaycan-İran sərhədlərini birləşdirən Şimal-Cənub nəqliyyat dəhlizi yüksək sürətli dəhliz olacaq və yüklərin mənzil başına çatma müddəti də, əlbəttə ki, qısalacaq.

Şəhərlərarası dəmir yollarının tikintisi də aparılır. İndi Ləki-Qəbələ dəmir yolu tikilir. Qəbələ indi turizm mərkəzlərindən biridir və Bakı-Yalama dəmir yolunun tikintisi ilə paralel olaraq, həmin yolun da çəkilməsi təmin edilməlidir. Şahdağ dağ-xizək kurortuna da dəmir yolu çəkilməlidir. Beləliklə, Qusar rayonuna da dəmir yolu ilə getmək mümkün olacaq. Bu da proqramda nəzərdə tutulur.

Tikinti sektoru ilə bağlı biz indi dövlət xətti ilə böyük layihələri icra edirik. Mənzil İnşaatı Dövlət Agentliyi iki böyük layihəni Yasamal rayonunda və Hövsanda icra edir. Bu prosesə də dövlət tərəfindən start verildi. Sosial evlərin tikintisi çox böyük əhəmiyyət daşıyır, vətəndaşlar bundan istifadə edirlər, eyni zamanda, bu, tikinti sektoruna da çox ciddi təkan verir. Həm inşaat materialları sektoruna, həm də tikinti sektoruna bunun çox böyük dəstəyi ola bilər.

Bildiyiniz kimi, son illərdə Azərbaycana gələn turistlərin sayı getdikcə artır və bu, çox müsbət haldır. Keçən il gələn turistlərin sayı təqribən 6 faizə yaxın artmışdır. Keçən il ölkəmizə əvvəlki illərdən daha çox - 2 milyon 850 min turist gəlmişdir. Aparılan hesablamalara görə, bu turistlər ölkəmizdə 2 milyard dollara yaxın pul xərcləmişlər. Bu, belə demək olarsa, əlavə 2 milyard dollar ixrac deməkdir. Artıq bu rəqəm göstərir ki, turizmin nə qədər böyük əhəmiyyəti var. Bu pullar xidmət sektoruna gedir, vətəndaşlar, sahibkarlar bundan faydalanırlar. Yəni, bu pullar birbaşa o şirkətlərə gedir ki, onlar bölgələrdə turistlərə müxtəlif xidmətlər göstərirlər. Çünki turistlərin böyük hissəsi artıq Azərbaycanın bölgələrinə gedir. Bütün lazımi şərait yaradılır və turizm sənayesi Azərbaycanda çox geniş imkanlara malik olmalıdır. Bunun üçün bütün lazımi ilkin şərtlər var. Azərbaycanda təhlükəsizlik, sabitlik hökm sürür, xalqımız çox qonaqpərvərdir. İqlimimiz də çox gözəldir və müxtəlif iqlim tipləri var. Müasir infrastruktur yaradılıb, 6 beynəlxalq aeroport, müasir yollar, dəmir yolları, otellər, gözəl təbiət, kurortlar, yay-qış xizək, dəniz kurortları, müalicəvi turizm inkişaf edir. Misal üçün, Naftalan indi böyük turizm mərkəzinə çevrilib. Digər müalicəvi yerlərə - Naxçıvanda Duzdağ müalicəvi mərkəzinə turistlər çox gəlir, Qalaaltıya müalicəyə gəlirlər. Tarixi abidələrimiz kifayət qədər çoxdur. Bu da böyük maraq doğurur. Coğrafi vəziyyətimiz də əlverişlidir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Yəni, bütün bu amillər deməyə əsas verir ki, turizm sənayesi Azərbaycanda çox sürətlə inkişaf edəcək.

Əlbəttə, bir çıxışda proqramda nəzərdə tutulan bütün istiqamətləri əhatə etmək mümkün deyil. Sadəcə olaraq, mən əsas istiqamətləri ictimaiyyətin diqqətinə çatdırdım.

Bütövlükdə isə deməliyəm ki, ilkin hesablamalara görə, regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Hesablanıb ki, bunun 4,6 milyard manatı özəl sektor tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir. Ancaq əlbəttə ki, bu, ilkin rəqəmdir. Mən tam əminəm ki, bu rəqəm daha böyük olacaq. Çünki əvvəlki üç proqramın icrası bunu göstərir. Çünki üç proqramın hər biri artıqlaması ilə icra edilmişdir. Əminəm ki, dördüncü proqram da artıqlaması ilə icra ediləcək. Nəzərə almalıyıq ki, indi bizdə investisiya iqlimi daha əlverişlidir. Mən giriş sözümdə qeyd etdim ki, Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb. Beləliklə, xarici investisiyalar bu rəqəmdə öz əksini tapmır. Hələ xarici investisiyalar qoyulacaq. Ona görə bu, çox böyük rəqəmdir və bu investisiyalar hesabına Azərbaycan bundan sonra da uğurla, inamla inkişaf edəcək. Mən tam əminəm ki, bundan sonra da ölkəmiz ancaq inkişaf, tərəqqi və qələbələr yolu ilə gedəcəkdir. Sağ olun".












# Prezident İlham Əliyevin növbəti humanist təşəbbüsü

## *Dövlət başçısının 28 yanvar 2019-cu il tarixli Fərmanına əsasən əlavə olaraq 2264 şəhid hərbi qulluqçunun və 461 şəhid polisin vərəsələrinə də birdəfəlik ödəmə veriləcək*

*Xəbər verildiyi kimi, bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Prezident Sarayında şəhid ailələri ilə görüşüblər. Qeyd edək ki, dövlət başçısının və Birinci vitse-prezidentin şəhid ailələri ilə bu görüşü bir tərəfdən ölkəmizdə həyata keçirilən dərinməzmunlu sosial siyasətin təzahürüdür, digər tərəfdən isə ölkə rəhbərliyinin şəhid ailələrinə və müharibə əlillərinə xüsusi münasibətinin və qayğısının ifadəsidir. Tədbirdə çıxış edən Prezident İlham Əliyev bu görüşün keçirilməsi təşəbbüsünün Ondan gəldiyini nəzərə çatdırıb. Dövlət başçısı torpaq, Vətən uğrunda həlak olmuş şəhidlərin yaxınlarına Özünün dərin hörmətini ifadə etmək istədiyini səmimiyyətlə vurğulayıb.*



## *Prezident İlham Əliyev: Bundan sonra da vətəndaşların sosial məsələləri daim diqqət mərkəzində olacaq*

### SOSİAL DÖVLƏT OLAN AZƏRBAYCANDA MÜHARİBƏDƏN ƏZİYYƏT ÇƏKƏN İNSANLARA HƏRTƏRƏFLİ QAYĞI GÖSTƏRİLİR

Azərbaycan sosial dövlətdir. Ölkənin dinamik iqtisadi inkişafı dərinməzmunlu sosial siyasətlə tamamlanır. Bir qayda olaraq respublikada insanların mənafeyinə, onların həyat şəraitinin yaxşılaşmasına, gəlir imkanlarının artırılmasına, xidmətlərin inklüzivliyinin təmin olunmasına hesablanan sosial təşəbbüslər Prezident İlham Əliyevdən gəlir. Respublikamızda milli iqtisadiyyatın sosialyönümlülüyünün təmin olunması nəticəsində əhalinin real gəlirlərinin orta illik artım tempi iqtisadi artım tempini orta hesabla 8,3 faiz bəndi üstələyib, ölkədə yoxsulluğun və işsizliyin səviyyəsi 5 faizə enib. Qeyd edək ki, hazırda Azərbaycanda yoxsulluq qlobal yoxsulluq səviyyəsindən 3 dəfə aşağıdır. Ölkəmiz insan inkişafı indeksini MDB dövlətləri üzrə ən yüksək səviyyəyə çatdırıb, BMT-nin İnkişaf Proqramının hesabatında "yüksək insan inkişafı" ölkələri qrupunda yer alıb.

Son 15 ildə dövlət başçısının təşəbbüsü ilə əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə vətəndaşların təbii qazdan, içməli su və kanalizasiya xidmətlərindən istifadəyə görə əvvəlki illərdə yaranmış borcları (müvafiq olaraq 327 milyon və 294,2 milyon manat) tam silinib, sovet dövründən qalmış əmanətlərə görə 1 milyard manat kompensasiya ödənilib. Ölkədə maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb.

Respublikamızda reallaşdırılan dərinməzmunlu sosial siyasətə uyğun olaraq şəhid ailələri, müharibə əlilləri, qaçqın və məcburi köçkün soydaşlarımız geniş dövlət qayğısı ilə əhatə olunublar. Məlum olduğu kimi, müstəqilliyimizin ilk vaxtlarında - ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda hakimiyyəti zəbt edən AXC-"Müsavat" cütlüyünün səriştəsiz və xəyanətkar fəaliyyəti nəticəsində xalqımız böyük faciə ilə üz-üzə qaldı. O vaxt Azərbaycanda hakimiyyətsizlik, hərc-mərclik hökm sürürdü. Dövlət başçısının bəhs olunan tədbirdə də vurğuladığı kimi, o vaxt Azərbaycanda güclü lider yox idi. Müxtəlif qruplaşmalar hakimiyyət uğrunda mübarizə aparırdılar, bir-birinə qarşı təxribat törədirdilər və Ermənistan bundan istifadə edib torpaqlarımızın bir hissəsini zəbt etmişdir. **"1990-cı illərin əvvəllərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımız işğal altına, bir milyondan çox soydaşımız qaçqın, məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz minlərlə şəhid verdik, on minlərlə insan yaralandı, əlil oldu",** - deyə Prezident İlham Əliyev bildirib.

Bu gün Azərbaycan iqtidarı Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə nail olmaq üçün məqsədyönlü siyasət aparır - respublikamız, bir tərəfdən, sülh danışıqlarında konstruktiv mövqe ortaya qoyur, eyni zamanda, ordu quruculuğuna böyük diqqət göstərir. Hazırda Azərbaycan ordusunun maddi-texniki təchizatı, döyüş qabiliyyəti kifayət qədər yüksək səviyyədədir, Silahlı Qüvvələrimizin şəxsi heyətinə yüksək mənəvi ruh hakimdir. Azərbaycan Ordusu öz gücünü artıq döyüş meydanlarında göstərir. Şanlı aprel döyüşləri, 2018-ci ildə keçirilən Naxçıvan əməliyyatı ordumuzun tarixi qələbələridir. Həmin döyüşlərdə Silahlı Qüvvələrimiz bir neçə strateji yüksəkliyi işğalçılardan azad edib və bu gün həmin yüksəkliklərdə Azərbaycan bayrağı əzəmətlə dalğalanır.

Bütün vasitələrdən bəhrələnərək özünün ərazi bütövlüyünü bərpa etməyə çalışan Azərbaycan, eyni zamanda, Vətən torpaqları uğrunda həlak olan şəhidlərin ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkün soydaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsinə yönələn ardıcıl siyasət həyata keçirir. Bunu nəzərə çatdıran Prezident İlham Əliyev **"Müharibədən əziyyət çəkən vətəndaşlara daim diqqət, qayğı göstərilir",** - deyə vurğulayıb.

Qeyd edək ki, respublikamızda müvafiq kateqoriyadan olan insanlara göstərilən dövlət qayğısı çoxşaxəlidir. Son 15 ildə Prezident İlham Əliyev Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə yönələn bir neçə Fərman və Sərəncam imzalayıb. Ölkəmizdə 2007-ci ilin əvvəlindən şəhid ailələrinin Prezidentin aylıq təqaüdü ilə təminatı həyata keçirilir. Şəhid ailələrinə və müharibə əlillərinə, Milli Qəhrəmanlara Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün məbləği ötən dövrdə mütəmadi olaraq artırılmaqla Milli Qəhrəmanlar üçün 1500 manata, şəhid ailələri üçün 242 manata, I qrup müharibə əlilləri üçün 182 manata, II qrup əlillər üçün 158 manata, III qrup əlillər üçün 121 manata çatdırılıb. Prezident təqaüdü ilə yanaşı, müharibə əlillərindən böyük əksəriyyəti əlilliyə görə əmək pensiyası, pensiya hüququ olmayan az bir qismi isə əlilliyə görə müavinət alır.

Əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə və müharibə əlillərinin uşaqlarına aylıq sosial müavinət verilir. Şəhid ailəsi və Milli Qəhrəman ailəsi üzvlərinə əmək pensiyası təyin olunarkən əlavə də hesablanır, həmçinin şəhid ailələrinin və müharibə əlillərinin uşaqları dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil aldıqda təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir.

*"Təkcə keçən il 626 şəhid ailəsinə yeni mənzillər, yeni evlər verilmişdir. Bu il əlavə 800 şəhid ailəsinə yeni mənzillər, evlər veriləcəkdir"*

Ölkəmizdə icra olunan özünüməşğulluq proqramına müraciət edənlər arasında digər həssas qruplarla yanaşı, şəhid ailələri və müharibə əlillərinə də üstünlük verilir. Təkcə ötən il 100-dək şəhid ailəsi, mindən çox əlilliyi olan şəxs bu proqrama cəlb olunaraq aktivlərlə təmin olunub.

Digər sahələrdə də şəhid ailələrinin sosial müdafiəsi məqsədilə mühüm tədbirlər həyata keçirilir və bu tədbirlər qarşıdakı dövrdə də ildən-ilə güclənəcək. Sadalanan faktlar dövlətimizin müharibədən əziyyət çəkən insanlara, o cümlədən də şəhid ailələrinə, müharibə əlillərinə olan həssas münasibətinin təzahürüdür. Bütövlükdə müqayisə apardıqda bəlli olur ki, dünyada əhalinin həssas təbəqələrinə Azərbaycan qədər hərtərəfli qayğı göstərən ölkələrin sayı çox azdır.

### ŞƏHİD AİLƏLƏRİNƏ, MÜHARİBƏ ƏLİLLƏRİNƏ QAYĞI ÖLKƏ PREZİDENTİNİN FƏALİYYƏTİNDƏ PRİORİTET İSTİQAMƏTİ TƏŞKİL EDİR

Azərbaycan Prezidentinin son 15 ildəki fəaliyyətini izlədikdə bəlli olur ki, dövlət başçısı şəhid ailələrinə, müharibə əlillərinə, qaçqın və məcburi köçkün soydaşlarımıza xüsusi həssaslıqla yanaşıb. Prezident İlham Əliyev yuxarıda bəhs olunan görüşdəki çıxışında da bu məqama toxunub. Dövlət başçısı xalqa xidmət etməyin Özü üçün ən böyük borc, ən böyük vəzifə olduğunu vurğulayaraq deyib: **"Mənim fəaliyyətimdə bu məsələ daim prioritet təşkil edir. Son illər ərzində şəhid ailələri ilə çoxsaylı görüşlərim bunu bir daha sübut edir. Biz sizinlə birlikdə bir çox evlərin açılışlarında iştirak etmişik. Mən şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını şəxsən təqdim etmişəm və bunu özüm üçün borc bilirəm. Bu, mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir ki, sizə bu istiqamətdə xidmətimi göstərim".**

*"Mənim birinci Fərmanım şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı idi. Təbii ki, bu, təsadüfi deyil. Mən istənilən sahə üzrə Fərman imzalaya bilərdim. İqtisadi sahə üzrə, xarici siyasət, sosial məsələlərlə bağlı. Ancaq mən hesab etdim ki, birinci Fərman şəhid ailələri ilə bağlı olmalıdır. Bu Fərman əsasında 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulur"*

Prezident İlham Əliyev müvafiq kateqoriyadan olan ailələrə həssas münasibətini 2018-ci ildə ölkəmizdə keçirilən prezident seçkiləri ərəfəsində bir daha nümayiş etdirdi. Məlum olduğu kimi, respublikamızda 1997-ci il avqustun 2-də "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra hərbi qulluqçuların həlak olması, itkin düşməsi və ya xəsarət alması zamanı sığorta ödənişlərinin verilməsinə dair normativ hüquqi baza formalaşdırılmış, belə ödənişlərlə bağlı maliyyə təminatı məsələsi həll edilmiş və qanuna uyğun olaraq sığorta ödənişlərinin verilməsinə başlanılmışdır. Həmin qanunun tətbiqindən əvvəl Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məsələləri isə açıq qalmışdı. Azərbaycan Respublikasının Prezidenti seçkiləri ərəfəsində cənab İlham Əliyev uzun illərdir gündəlikdə duran məsələnin həll olunacağını vəd etmişdi. 2018-ci ildə keçirilən prezident seçkilərində inamlı qələbəsindən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı ilk Fərman şəhid ailələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olub ki, bu da həmin ailələrin sosial müdafiəsinin yaxşılaşdırılmasının dövlət başçısının uğurlu siyasətinin başlıca məqsədlərindən biri olduğunu bir daha təsdiq edib, ictimaiyyət tərəfindən böyük rəğbət və məmnunluqla qarşılanıb.

Qeyd edək ki, "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanına əsasən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub. Bəhs olunan Fərman Azərbaycan Prezidenti İlham Əliyevin humanist siyasətinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə yüksək diqqət və qayğısının bariz nümunəsidir. Bu, Azərbaycan Prezidentinin öz vədlərinə sadiq qaldığını, hər bir vətəndaşın qayğı və probleminə xüsusi həssaslıqla yanaşdığını, onların tez bir zamanda aradan qaldırılması üçün əməli tədbirlər gördüyünü əyani şəkildə təsdiq edir. **"Mənim birinci Fərmanım şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı idi. Təbii ki, bu, təsadüfi deyil. Mən istənilən sahə üzrə Fərman imzalaya bilərdim. İqtisadi sahə üzrə, xarici siyasət, sosial məsələlərlə bağlı. Ancaq mən hesab etdim ki, birinci Fərman şəhid ailələri ilə bağlı olmalıdır. Bu Fərman əsasında 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulur".**

*"Mən şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını şəxsən təqdim etmişəm və bunu özüm üçün borc bilirəm. Bu, mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir"*

### DÖVLƏT BAŞÇISININ İMZALADIĞI YENİ FƏRMANA ƏSASƏN BİRDƏFƏLİK ÖDƏMƏ VERİLƏCƏK ŞƏHİD AİLƏLƏRİNİN ƏHATƏ DAİRƏSİ DAHA DA GENİŞLƏNİB

Ölkəmizdə "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanının icrasına ötən il noyabrın 14-dən başlanılıb. Şəhidlərin vərəsələrinə birdəfəlik ödəmənin verilməsi prosesi qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla və şəffaflıq tam təmin edilməklə həyata keçirilir. Şəhid hərbi qulluqçuların vərəsələri nazirliyin rəsmi saytında sorğu verərək ödəmə almaq hüquqlarını öyrəndikdən sonra notariat kontorlarına müvafiq sənədləri təqdim edir, vərəsəlik şəhadətnaməsi alırlar. Sənədlər notariat kontorları tərəfindən elektron qaydada nazirliyə təqdim olunur. Nazirlikdəki müvafiq işçi qrupu tərəfindən həmin sənədlərin təhlili aparılır. Ötən dövrdə 3100 şəhid hərbi qulluqçunun 4200-ə qədər vərəsəsinə birdəfəlik ödəmə həyata keçirilib, bu istiqamət üzrə 34 milyon manat vəsait ödənilib. Hazırda 6444 şəhidin vərəsələrinə ödənişlərin həyata keçirilməsi müvafiq qaydada davam etdirilir. Dövlət başçısının 28 yanvar 2019-cu il tarixdə imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərmanla birdəfəlik ödəmə veriləcək şəhid ailələrinin əhatə dairəsi daha da genişlənib. Belə ki, sənədə əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhidin (o cümlədən 11000 manatdan az sığorta ödənişi almış 2264 şəhid hərbi qulluqçunun və 461 şəhid polisin) vərəsələrinə də birdəfəlik ödəmənin verilməsi tapşırılıb. Yeni Fərmanla birdəfəlik ödəmənin verilməsi prosesi artıq 12268 şəhidin vərəsələrini əhatə edir və bu məqsədlər üçün ümumilikdə 135 milyon manat vəsait nəzərdə tutulur. Prezident İlham Əliyev yeni Fərman imzalanarkən məsələyə sosial ədalət prizmasından yanaşıldığını nəzərə çatdıraraq deyib: **"Biz bütün məsələləri ədalətli həll etməliyik, bütün məsələlərə sosial ədalət prizmasından yanaşmalıyıq. Bunu nəzərə alaraq, mən bu gün yeni Fərman imzaladım. Bu Fərman əsasında 11 min manatı alacaq vətəndaşların sayı 2725 nəfər artırıldı. Onların içərisində təbii ki, vaxtilə müavinəti az məbləğdə alan vətəndaşlardır və ümumiyyətlə, siyahıya düşməyən daxili işlər orqanları şəhid ailələrinin nümayəndələridir, onların da sayı 460-dan çoxdur".**

Yuxarıda bəhs olunan görüşdə iştirak edən şəhid ailələrinin üzvləri ölkəmizə müvafiq kateqoriyadan olan insanlara hərtərəfli qayğı göstərildiyinə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər. Onlar bildiriblər ki, şəhid ailələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi onların həyat şəraitinin yaxşılaşmasına öz müsbət təsirini göstərəcək. Şübhə yoxdur ki, Azərbaycan Respublikası Prezidentinin mühüm sosial əhəmiyyət kəsb edən və şəhid ailələrinə böyük diqqət və qayğının növbəti təcəssümü olan 28 yanvar 2019-cu il tarixli Fərmanı da yüksək səviyyədə icra ediləcək.

### ŞƏHİD AİLƏLƏRİNİN, MÜHARİBƏ ƏLİLLƏRİNİN MƏNZİL-MƏİŞƏT ŞƏRAİTİNİN YAXŞILAŞDIRILMASI GƏLƏCƏKDƏ DƏ DAVAM ETDİRİLƏCƏK

Respublikamızda sosial sferada böyük diqqət göstərilən məsələlərdən biri də şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkün soydaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlıdır. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, 2004-cü ildən bəri Prezident İlham Əliyev tərəfindən məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı 55 Fərman və Sərəncam imzalanıb. İndiyədək bu məqsədlə 6 milyard manatdan çox vəsait ayrılıb. Respublika miqyasında çadır şəhərcikləri, fin tipli evlər tam ləğv olunub. Dövlət başçısının təsdiqlədiyi müvafiq proqramlara əsasən respublikanın müxtəlif bölgələrində məcburi köçkünlər üçün 100-ə yaxın müasir yaşayış kompleksi salınıb. Hazırda Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan köçkünlərin yeni mənzillərə köçürülməsi layihəsinin icrası uğurla davam etdirilir. Layihə çərçivəsində birinci mərhələdə ən qəzalı binalarda yaşayan 4 min ailənin köçürülməsi üçün tədbirlər planı hazırlanıb. İndiyədək layihə çərçivəsində inşa edilən bir neçə çoxmənzilli bina istifadəyə verilib.

*"Biz bütün məsələləri ədalətli həll etməliyik, bütün məsələlərə sosial ədalət prizmasından yanaşmalıyıq"*

O cümlədən respublikamızda şəhid ailələrinin və müharibə əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. İndiyədək bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil, 6144 avtomobil verilib. Əlamətdar haldır ki, respublikamızda bu proses ildən-ilə daha geniş vüsət alır. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, 2018-ci ildə müharibə əlillərinə və şəhid ailələrinə 626 mənzil verilib. Proses gələcəkdə də davam etdiriləcək. Bunu nəzərə çatdıran Prezident İlham Əliyev **"Mən bir daha demək istəyirəm ki, bundan sonra da vətəndaşların sosial məsələləri daim diqqət mərkəzində olacaq. Şəhid ailələri üçün bundan sonra da evlər tikilib istifadəyə veriləcək. Təkcə keçən il 626 şəhid ailəsinə yeni mənzillər, yeni evlər verilmişdir. Bu il əlavə 800 şəhid ailəsinə yeni mənzillər, evlər veriləcəkdir. Növbəti bir neçə il ərzində bütün şəhid ailələri evlərlə, mənzillərlə təmin ediləcəklər. Bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin",** - deyə vurğulayıb.

Yuxarıda deyilənlər müstəqil Azərbaycanın dərinməzmunlu sosial siyasəti barədə konkret təsəvvür yaradır. Dövlətimizin sosial sahədəki əsas hədəfi aztəminatlı insanların həyat səviyyəsinin yüksəldilməsinə nail olmaqdan ibarətdir. Faktlardan da göründüyü kimi, sosial dövlət olan Azərbaycanda ədalətli resurs bölgüsü həyata keçirilir və qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər.

**Mübariz ABDULLAYEV**

# Regionların inkişafı üzrə Dövlət Proqramının icrasının yekunlarına dair konfrans çərçivəsində sahibkarlarla müzakirələr aparılıb

*İqtisadiyyat Nazirliyi ilə Dövlət Gömrük Komitəsi əməkdaşlıq haqqında anlaşma memorandumu imzalayıb*








Yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfrans çərçivəsində iqtisadiyyat, vergilər, əmək və əhalinin sosial müdafiəsi, kənd təsərrüfatı nazirlərinin, Dövlət Gömrük Komitəsi və Qida Təhlükəsizliyi Agentliyinin sədrlərinin iştirakı ilə sahibkarlarla görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Şahin Mustafayev Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfransda dövlət başçısının üçüncü Dövlət Proqramının icrası çərçivəsində görülmüş işləri yüksək qiymətləndirdiyini, qarşıdakı illərdə iqtisadiyyatın, o cümlədən sahibkarlığın inkişafı istiqamətində mühüm vəzifələr müəyyənləşdirdiyini vurğulayıb.

Nazir qeyd edib ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkədəki ictimai-siyasi sabitlik, həyata keçirilən davamlı islahatlar nəticəsində yaradılan güclü iqtisadi potensial dünyada gedən çətin geosiyasi proseslər fonunda Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafını təmin edib, regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayıb. Son dövrlərdə ölkəmizdə müasir iqtisadi şəraitin tələblərinə uyğun olaraq çoxşaxəli və ardıcıl islahatlar həyata keçirilir, qeyri-neft ixracının artırılması üzrə kompleks stimullaşdırıcı tədbirlər görülür, biznes-investisiya mühiti davamlı olaraq yaxşılaşdırılır, qeyri-neft sektorunun inkişafı təmin edilir, sahibkarlığa dövlət dəstəyi daha da gücləndirilir: **"Həyata keçirilən genişmiqyaslı islahatlar mötəbər beynəlxalq maliyyə qurumlarının hesabatlarında, o cümlədən Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha yüksək səviyyəyə qalxmasına imkan verib. Belə ki, Dünya Bankının dərc etdiyi "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi əvvəlki illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla MDB ölkələri arasında lider mövqeyə yüksəlib".**

Ş.Mustafayev diqqətə çatdırıb ki, icrası başa çatan Dövlət Proqramı çərçivəsində 2014-2018-ci illərdə regionların inkişafına ümumilikdə 24,2 milyard manat vəsait yönəldilib. Dövlət başçısının şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı imzaladığı 400-dən çox sərəncamla 2,8 milyard manat vəsaitin ayrılması regionların sosial-iqtisadi inkişafında həlledici rol oynayıb.

Qeyd edib ki, kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad olunması, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, lizinq xidmətlərinin təşkili, investisiyaların və ixracın təşviqi, lisenziyalaşdırmanın təkmilləşdirilməsi, yoxlamaların dayandırılması müddətinin 2021-ci il yanvarın 1-dək uzadılması, yerli istehsalın stimullaşdırılması məqsədilə dövlət satınalmalarında yerli məhsulların dəyərinə 20 faiz güzəştin tətbiqi, ixrac təşviqinin verilməsi və digər dövlət dəstəyi mexanizmləri ölkədə sahibkarlığın inkişafında mühüm rol oynayır: **"Pambıqçılıq, tütünçülük, baramaçılıq, sitrus meyvəçiliyi, çayçılıq, çəltikçilik, şərabçılıq və xalçaçılıq sahələrinin inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları və bu sahədə görülən işlər aqrar sektorun və sənayenin inkişafında, ixrac potensialının artmasında və regionlarda məşğulluq səviyyəsinin yüksəlməsində xüsusi əhəmiyyət kəsb edir. Ölkədə sahibkarlığın dəstəklənməsi, özəl investisiyaların təşviqi, vergi güzəştlərinin optimallaşdırılması və iqtisadi səmərəsinin yüksəldilməsi, startapların, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin klasterlərinin yaradılması sahibkarlığın inkişafı üçün geniş imkanlar açır".**

Bildirib ki, qida zəncirinin bütün mərhələlərində qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsinə dövlət nəzarətini və siyasətini həyata keçirmək məqsədi ilə mühüm struktur islahatları həyata keçirilib: **"Gömrük rəsmiləşdirilməsi sahəsində aparılan islahatlar ölkəmizdə sahibkarlığın inkişafına, qeyri-neft məhsullarının ixracına əlavə stimul yaradıb və biznes mühitinin daha da yaxşılaşmasında əhəmiyyətli addım olan hökumət-biznes münasibətlərində "Könüllü riayət mədəniyyəti"nin əsasını qoyub".**

İqtisadiyyat naziri əhalinin məşğulluğunun təmin olunması, yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması, vətəndaşların ünvanlı sosial yardımdan asılılığının aradan qaldırılması, məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirləri diqqətə çatdırıb: **"Sosial layihələrin reallaşdırılmasında əvəzsiz xidmətləri olan Heydər Əliyev Fondunun, şəxsən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən sosial layihələr regionlarda yaşayan əhalinin rifahının yüksəlməsinə mühüm töhfə verir".**

Ş.Mustafayev qeyd edib ki, regionların inkişafında Sumqayıt və Mingəçevirdə sənaye parklarının, Neftçala, Masallı, Hacıqabul və Sabirabadda sənaye məhəllələrinin yaradılması, 33 rayonun ərazisində 51 aqroparkın və iri fermer təsərrüfatlarının təşviqi bölgələrin potensialından səmərəli istifadə etməklə sahibkarlığın inkişafını sürətləndirir: **"İxracın təşviqi, xüsusilə qeyri-neft ixracının dəstəklənməsi məqsədilə indiyədək 24 ixrac missiyası təşkil edilib, Azərbaycan şirkətləri 17 beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak edib, müqavilələr imzalanıb, 104,2 milyon dollar dəyərində məhsulların müxtəlif ölkələrə, o cümlədən bir sıra yeni bazarlara ixracı ilə əlaqədar 8 milyon manatadək ixrac təşviqinin ödənilməsinə dair qərarlar qəbul edilib".**

İnvestisiyanın təşviqi mexanizmlərindən danışan nazir diqqətə çatdırıb ki, indiyədək 292 sahibkarlıq subyektinə 332 investisiya təşviqi sənədi verilib. Bu layihələrin icrası nəticəsində yerli istehsala 2,8 milyard manatdan çox investisiya yatırılacaq, 22 minədək yeni iş yeri yaradılacaq. Bu layihələrin 87 faizi regionların payına düşür: **"Qeyri-neft sektorunun inkişafına dövlət dəstəyi tədbirləri nəticəsində 2014-2018-ci illərdə qeyri-neft sektoru 8 faiz, qeyri-neft sənayesi isə 32 faiz artıb. Görülən işlər nəticəsində 2004-2018-ci illər ərzində 1,5 milyonu daimi olmaqla 2 milyondan çox iş yeri açılıb".**

O qeyd edib ki, Dövlət Proqramının icrası dövründə Azərbaycan arıçılar, şərab, nar, meyvə-tərəvəz, fındıq, xurma, zeytun, tütün, tekstil, çay, süd və süd məhsulları, istehsalçıları və ixracatçıları, qablaşdırma sənayesi, mebel, tikinti materialları, maşın və avadanlıq istehsalçıları və qadın sahibkarlığının inkişafı assosiasiyaları fəaliyyətə başlayıb və artıq bu sahələrin inkişafına öz müsbət töhfəsini verir: **"2014-2018-ci illərdə 16 mindən çox sahibkarın ümumi dəyəri 2,6 milyard manat olan layihəsinə 1 milyard manatdan çox güzəştli kredit verilib, bunun 79 faizi aqrar sektorun, 21 faizi isə müxtəlif sənaye və digər sahələrin inkişafına yönəldilib. Verilmiş güzəştli kreditlərin 70 faizi regionların payına düşür. 2018-ci ildə geri qaytarılan vəsaitlər hesabına sahibkarlara 160,2 milyon manat güzəştli kredit verilib. Bu ildə də tamamilə geri qaytarılan vəsaitlər hesabına minimum 160 milyon manat kredit verilməsi nəzərdə tutulur".**

Nazir əlavə edib ki, dövlət başçısının müvafiq Fərmanı ilə yaradılmış İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyəti, iri rayon və şəhərlərdə yaradılacaq "Kiçik və Orta Biznes evləri" kiçik və orta sahibkarlığın rolunu və rəqabət qabiliyyətini daha da artıracaq, sahibkarların dövlət xidmətlərinə vahid məkan prinsipi əsasında çıxışını təmin edəcək: **"Hazırda "KOB Dostu" şəbəkəsinin də genişləndirilməsi işləri aparılır. Artıq Masallı, Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran, Gəncə və Yevlaxda "KOB Dostu" fəaliyyət göstərir".**

Ş.Mustafayev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfrans çərçivəsində sahibkarlarla keçirilən görüşdə qaldırılan məsələlərin həlli istiqamətində ötən müddətdə görülmüş işlər barədə məlumat verib.

Görüşdə sahibkarların iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən sənaye, kənd təsərrüfatı, vergi, gömrük, ixrac, əmək münasibətləri və sair sahələr üzrə təklifləri dinlənilib, müzakirələr aparılıb, suallar cavablandırılıb.

Tədbirin sonunda İqtisadiyyat Nazirliyi və Dövlət Gömrük Komitəsi arasında "Ticarətin Asanlaşdırılması"na dair əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənəddə ticarətin asanlaşdırılması istiqamətində birgə tədbirlərin görülməsi, xarici ticarət iştirakçılarına daha əlverişli biznes mühitinin yaradılması, idxal-ixrac əməliyyatlarının optimallaşdırılması və digər sahələr üzrə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının İdarə Heyəti ölkəmizdəki diplomatik korpusun nümayəndələrinə təqdim edilib

Yanvarın 29-da Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin və beynəlxalq təşkilatların diplomatik nümayəndələri ilə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrindən bəhs edərək, yüz minlərlə azərbaycanlının işğal olunmuş Dağlıq Qarabağ regionundan və ətraf rayonlardan öz evlərindən və mülklərindən zor gücünə didərgin salındığını qeyd edib. O, işğal edilmiş ərazilərimizin azad olunmasının və məcburi köçkünlərin öz evlərinə geri qayıtmasının vacibliyini vurğulayıb. Münaqişənin həlli ilə bağlı davam edən danışıqlar çərçivəsində erməni və azərbaycanlı əhalinin sülhə hazırlanması çağırışını xatırladan nazir müavini bu xüsusda ölkəmizin Dağlıq Qarabağ bölgəsinin iki icması arasında təmasların və dialoqun bərpa edilməsinin önəmini diqqətə çatdırıb.






Mahmud Məmməd-Quliyev görüşün əsas məqsədinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının 23 nəfərdən ibarət olan İdarə Heyətinin ölkəmizdəki diplomatik korpusa təqdim edilməsi olduğunu qeyd edib. O, işğal olunmuş torpaqlarımızdan didərgin salınmış məcburi köçkünlərin, o cümlədən ölkəmizin Dağlıq Qarabağ bölgəsinin 80 min nəfərdən çox azərbaycanlı icmasının pozulmuş fundamental insan hüquqlarının bərpa olunmasının və bu insanların səsinin beynəlxalq səviyyədə eşidilməsinin yüksək əhəmiyyət kəsb etdiyini diplomatik korpusun diqqətinə çatdırıb.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış edib. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin doğurduğu ağır fəsadları qeyd edərək, beynəlxalq ictimaiyyətin münaqişənin həlli ilə bağlı mövqeyini, o cümlədən BMT TŞ-nin 4 qətnaməsinin tələblərini tədbir iştirakçılarına xatırladıb. Bu xüsusda, beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq ədalətli həllinin tərəfdarı olduğunu vurğulayıb. Şöbə müdiri bildirib ki, Azərbaycanın işğal olunmuş ərazilərinin azərbaycanlı əhalisini etnik təmizləməyə məruz qoyan, onların bütün fundamental hüquq və azadlıqlarını, o cümlədən yaşamaq hüququnu kobud şəkildə pozan Ermənistanın Dağlıq Qarabağın erməni icmasına imtiyazlı hüquqlar tələb etməsi insan hüquqlarının qorunması üzrə bütün sənədlərə köklü şəkildə ziddir.

Daha sonra Hikmət Hacıyev Azərbaycan Respublikası hökuməti tərəfindən bütün məcburi köçkünlər və qaçqınların həyat şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən ardıcıl siyasətdən, Prezident İlham Əliyev tərəfindən şəhid ailələrinə göstərilən qayğıdan bəhs edib və bu xüsusda yanvarın 28-də şəhid ailələri ilə keçirilən görüş barədə tədbir iştirakçılarına məlumat verib. Şöbə müdiri vurğulayıb ki, Cocuq Mərcanlı kəndində aparılan quruculuq işləri, məcburi köçkünlərin ləyaqətli və təhlükəsiz şəkildə öz doğma torpaqlarına qayıtmasının təmin olunması işğaldan azad ediləcək bütün ərazilərin bərpa olunması, dayanıqlı sülhün və inkişafın bərqərar olması üçün Azərbaycan Respublikasının əzmini bir daha nümayiş etdirir.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev çıxış edərək öncə icma haqqında məlumat verib. O, icmanın ATƏT-in 1992-ci il Helsinki qərarına əsasən münaqişənin həllində maraqlı tərəf olduğunu qeyd edib. Tural Gəncəliyev icmanın İdarə Heyətinə daxil olan 23 nümayəndəni təqdim edib. O, çıxışında vaxtı ilə Şuşada erməni qonşuları ilə birgə sülh şəraitində yaşadığı günləri xatırlayaraq, azərbaycanlı icmanın erməni icması isə təmaslar qurmağa və konstruktiv dialoq aparmağa hazır olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra icmanın İdarə Heyətinin üzvləri, Xocalıda anadan olmuş Dürdanə Ağayeva və Samirə Hüseynova çıxış ediblər. Onlar Azərbaycanın Xocalı şəhərinin işğalından öncə burada ermənilərlə birgə əmin-amanlıq şəraitində yaşadıqlarını qeyd edərək, dinc erməni əhalisinin Ermənistanın işğalçı siyasətinin girovuna çevrildiyini vurğulayıb, Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları arasında dialoqun bərpa olunmasının bölgədə etimadın yaradılması baxımından əhəmiyyətli olduğunu bildiriblər.

Tədbir zamanı, həmçinin ölkəmizin Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının digər üzvləri də öz fikirlərini bildirib, eləcə də suallarını diplomatik korpusun nümayəndələrinə ünvanlayıblar.

## Cavanşir Paşazadə: Azərbaycan dövlətinin, şəxsən cənab Prezidentin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz tərəfindən yüksək dəyərləndirilir



**“Azərbaycanın ərazi bütövlüyü uğrunda öz canından keçmiş şəhidlərin ailələrinə, həmçinin müharibə əlillərinə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şəhid ailələri ilə görüşü böyük əhəmiyyət kəsb edir”.** Bu fikirləri Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib.

C.Paşazadə bildirib ki, bu görüş mənəvi cəhətdən böyük önəm kəsb edir. Onun sözlərinə görə, görüşdə dövlətimizin başçısı şəhidlərin əziz xatirəsinə ehtiramını ifadə etdi, şəhid ailələrinin bundan sonra da qayğı ilə əhatə olunacağını söylədi. Cənab Prezident qeyd etdi ki, bizim üçün ölkəmizin ərazi bütövlüyünün bərpası ən vacib məsələdir. **“Dövlətimizin başçısı vaxtilə müavinət almış ailələrlə bağlı araşdırmaların aparıldığını, onların aldığı vəsaitin bu günün məzənnəsi ilə uyğunsuzluq təşkil etdiyini nəzərə alaraq yeni Fərman imzaladığını söylədi. Hesab edirəm ki, bu, çox böyük humanist addımdır və şəhidlərimizin ailələrinə göstərilən diqqət və qayğının daha bir ifadəsidir”,** - deyən millət vəkili qeyd edib ki, indiyə qədər bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil, 6144 avtomobil, ötən il isə 626 mənzil verilib. Bu il həmin vətəndaşlara azı 800 mənzilin təqdim olunması nəzərdə tutulur.

**“Şəhid ailələrinə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mühüm istiqamətlərindən biridir. Şəhid ailələrinə və müharibə əlillərinə, Milli Qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bununla da şəhid ailələrinin sosial müdafiəsi ildən-ilə yaxşılaşıb, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanıb. 2018-ci ildə keçirilən prezident seçkilərindəki qələbəsindən sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman da bu qəbildəndir. Şəhid ailələrinə birdəfəlik ödəmənin verilməsini nəzərdə tutan bu Fərman onların sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində ən mühüm addımlardan olmaqla ölkə vətəndaşlarının rifahının dirçəldilməsinə xidmət edən ən humanist addımlardan biri kimi qəbul edilməlidir. Yanvarın 28-də dövlət başçısının bu Fərmana dəyişikliklər edilməsi ilə bağlı Fərman imzalaması ilə birdəfəlik yardım alanların sayı daha da artacaq. Bütövlükdə, Azərbaycan dövlətinin, şəxsən cənab Prezidentin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz tərəfindən yüksək dəyərləndirilir”,** - deyə C.Paşazadə vurğulayıb.

## Dmitri Savelyev: Azərbaycan Prezidenti Davos Forumundan ölkənin uğurlarını nümayiş etdirmək məkanı kimi bacarıqla istifadə edir

***İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunun işi başa çatıb. Dünyanın siyasi və işgüzar elitası nümayəndələrinin builki görüşündə ən nəzərəçarpan iştirakçılardan biri Azərbaycan Prezidenti İlham Əliyev olub. Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-a müsahibəsində dünya birliyində Azərbaycanın artan rolu və bu artımın Rusiya-Azərbaycan iqtisadi əməkdaşlığına təsiri barədə danışıb.***

**- Dmitri İvanoviç, Siz Davos İqtisadi Forumunu necə səciyyələndirərdiniz?**

- İlin mühüm beynəlxalq hadisələrindən biri statusuna malik olan bu tədbir artıq yarım əsrə yaxındır ki, keçirilir. Bəzən Davos forumunu dünyanın beyin mərkəzi adlandırırlar, çünki praktiki olaraq bütün ölkələrdən Davosa toplaşan aparıcı siyasətçi və iqtisadçılar dünya iqtisadiyyatının yeni trendlərini müəyyən edir və kollektiv strategiyanı əlaqələndirirlər. Bu Foruma əliboş gəlmirlər, axı, dünya miqyaslı ideyaları və investisiya layihələrini məhz burada təqdim etmək olar. Bu sahədə inanılmaz rəqabət gedir və Dünya İqtisadi Forumunun səriştəli auditoriyasını nəyləsə maraqlandırmaq çox çətindir.

**- Siz Azərbaycanın bu Forumda iştirakını necə qiymətləndirirsiniz?**

- Prezident İlham Əliyev bu foruma hər il perspektivli layihələr və təkliflər portfeli ilə gəlir, həmin layihələr və təkliflər hər dəfə potensial investorların güclü marağına səbəb olur. Transmilli korporasiyaların bəzilərinin rəhbərləri hətta açıq etiraf edirlər ki, onlar Davosa məhz Azərbaycan lideri ilə görüşmək üçün gəliblər. Bunlar quru sözlər deyil: Azərbaycan Prezidentinin Forum çərçivəsində iş cədvəlini təhlil etsək görərik ki, İlham Heydər oğlu dörd gün ərzində iri biznes nümayəndələri və siyasi xadimlərlə onlarca görüş keçirib. Azərbaycan Prezidenti bu Forumdan ölkənin iqtisadi sahədə qazandığı bütün uğurları təqdim etmək mümkün olan bir məkan kimi bacarıqla istifadə edir. Axı, Azərbaycanın təcrübəsi energetika sahəsində əldə edilmiş gəlirləri rentabelli infrastruktur layihələrinə nə dərəcədə uğurla sərmayə qoymaq mümkün olduğunu göstərən parlaq nümunədir.

Azərbaycan öz coğrafi mövqeyindən səmərəli istifadə edərək ölkələri birləşdirən beynəlxalq hab missiyasını öz üzərinə götürüb. Respublika elektrik enerjisi istehsalına və qazlaşdırma səviyyəsinin artırılmasına (ölkədə bu göstərici 95 faizdir), yol tikintisinə (yolların keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yeri tutur), həmçinin “Şimal-Cənub” nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu və ya Ələt Beynəlxalq Ticarət Limanı kimi qlobal layihələrin həyata keçirilməsinə çox sanballı vəsait qoyur. Bütün bunlar son 15 ildə ölkəyə genişmiqyaslı - 250 milyard dollara yaxın sərmayə cəlb etməyə imkan verib. Dünya Bankının “Doing Business” hesabatında əks olunmuş məlumatlara görə, hazırda Azərbaycan iqtisadi inkişaf sürəti üzrə dünyada 25-ci yerdədir. Bir il ərzində respublika 32 bənd irəliləyib. Bu, rekord artımdır.



**- Sizin fikrinizcə, Azərbaycanın bu qədər sürətlə inkişaf etməsi neft-qaz gəlirlərindən bacarıqla istifadə edilməsindən başqa daha nəyin sayəsində mümkün olur?**

- İqtisadiyyata savadlı rəhbərlik edilməsə, təbiətin respublikaya bəxş etdiyi ehtiyatlar gərəksiz bir yük kimi qalardı. Bu məsələdə Azərbaycanın rəhbər sarıdan çox bəxti gətirib: Prezident İlham Əliyev vəziyyəti bir neçə gediş qabaqcadan hesablamağı bacarır, perspektivli layihələri və innovasiya ideyalarını dərhal hiss edir və qiymətləndirir. Bundan əlavə, O, diplomatiya istedadına malikdir, axı, Azərbaycan özünün bütün qonşuları ilə (əlbəttə, Ermənistan istisna olmaqla) əla münasibətlər yarada bilib. Bu ölçülüb-biçilmiş, çoxvektorlu siyasət həm də sanballı iqtisadi səmərə verir. Rusiya ilə tərəfdaşlıq buna əla nümunə ola bilər: burada mehriban qonşuluq münasibətləri genişmiqyaslı müştərək layihələrin əsası olub.

**- Xahiş edirəm, Azərbaycan Prezidentinin Davosda Rusiya nümayəndə heyətinin üzvləri ilə görüşlərinin yekunları barədə danışın.**

- Rusiya Azərbaycanın strateji tərəfdaşıdır. Forumun kuluarlarında Prezident İlham Əliyev Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin ilə görüş keçirib. Azərbaycan lideri respublikanın ərazisində iri neft-qaz layihələrinin həyata keçirilməsi məsələsini dünyanın aparıcı neft şirkətlərinin rəhbərləri ilə müzakirə edib. Onların arasında Rusiyanın “LUKoyl” şirkətinin prezidenti Vahid Ələkbərov da vardı. VTB Bankı Azərbaycanda çoxdan və səmərəli fəaliyyət göstərir. Prezident İlham Əliyev bu əməkdaşlığın perspektivləri barədə VTB Bankının prezidenti Andrey Kostinlə fikir mübadiləsi aparıb. Təkrar edirəm: bütün perspektivli və innovasiyalı layihələr azərbaycanlıları maraqlandırır, çünki respublikanın maliyyə sabitliyinin güclənməsi rəqəmsal iqtisadiyyatın təməlini qoyur. Məsələn, Azərbaycan dəmir yolları boyunca çəkilən magistral optiklifli rabitə xətləri Azərbaycanın Rusiya və digər qonşu dövlətlərlə davamlı genişzolaqlı rabitə imkanlarını formalaşdırır.

**- İqtisadiyyat sahəsində Rusiya-Azərbaycan münasibətlərinin cari vəziyyətini necə qiymətləndirirsiniz?**

- Bizim ölkələrimiz arasında münasibətlərə müəyyən hədd qoymaq çətindir, çünki iqtisadi əməkdaşlıq daim hərəkətdədir, inkişaf edir və genişlənir. Müxtəsər desək, təkcə 2018-ci ildə Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin həcmi 20 faiz artaraq, təqribən 2,5 milyard dollara çatıb. Bu göstərici onun sayəsində əldə edilib ki, biz qarşılıqlı kapital qoyuluşunu genişləndirməyə (bu gün kapital qoyuluşunun həcmi 5 milyard dollara yaxındır), sənaye sahəsində kooperasiyanı dərinləşdirməyə, habelə müştərək şirkətlərin və istehsalatların fəaliyyətini stimullaşdırmağa nail olmuşuq. Prezidentlər Vladimir Putin və İlham Əliyev arasında sentyabr ayında aparılmış danışıqların yekunlarına əsasən, Rusiya-Azərbaycan iqtisadi əməkdaşlığının üstün istiqamətlərini əks etdirən beş “yol xəritəsi” işlənib hazırlanıb. 2018-ci il dövlətlərimizin tərəfdaşlığı və ticari-iqtisadi münasibətlərin inkişafı baxımından xüsusilə uğurlu olub.

**- Siz əsas amillər kimi məhz hansı amilləri fərqləndirərdiniz?**

- Belə amillərdən biri Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanın imzalanması oldu. Bu tarixi sənəd diplomatların və siyasətçilərin çoxillik gərgin əməyinin nəticəsidir. Xəzərdən və onun təbii ehtiyatlarından istifadə məsələsində Xəzəryanı dövlətlərin hüquq və vəzifələrini müəyyən edən bu Konvensiya sayəsində indi Rusiya və Azərbaycan şirkətləri neft hasilatı, nəqliyyat, yükdaşımalar, turizm, balıq ovu, ekologiya və Xəzərin bioloji ehtiyatlarının qorunub saxlanması sahəsində çoxsaylı layihələri birgə həyata keçirə biləcəklər.

Ölkələrimizin regionlararası səviyyədə qarşılıqlı əlaqələrinin inkişafı daha bir mühüm amil oldu. Bu gün bizim ölkənin 83 regionundan 71-i Rusiyanın cənub qonşusu ilə əməkdaşlıq edir, onlardan 20-si Azərbaycan ilə ticari-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında ikitərəfli sazişlər imzalayıblar. Bütün bunlar biznesi daha fəal inkişaf etdirməyə, ticarəti və humanitar əlaqələri genişləndirməyə imkan yaradır. İqtisadiyyat siyasətin əsasıdır. Ona görə deyə bilərik ki, Rusiya və Azərbaycan möhkəm iqtisadi baza əsasında həqiqətən dürüst və qarşılıqlı faydalı tərəfdaşlıq münasibətləri qurmağa nail olublar.

## Sədaqət Vəliyeva: Şəhid ailələri ilə görüş, imzalanmış Fərman böyük diqqət və qayğının növbəti təcəssümüdür

Azərbaycan Prezidentinin şəhid ailələri ilə görüşməsi, onları dinləməsi, eləcə də daha 3 minə qədər şəhid ailəsinin birdəfəlik müavinətlə təmin olunması haqqında Fərman imzalaması dövlətimizin başçısının bu məsələyə nə qədər həssas yanaşdığını nümayiş etdirir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.



Sədaqət Vəliyeva bildirib ki, dövlətimizin başçısının növbəti humanist təşəbbüsü olan bu Fərman əsasında 11 min manatı alacaq vətəndaşların sayı 2725 nəfər artırıldı. Yeni Fərmanla şəhid vərəsələrinə ödəniləcək vəsaitin həcmi 135 milyon manata çatır: **“Prezident İlham Əliyevin mühüm sosial əhəmiyyət kəsb edən və şəhid ailələrinə böyük diqqət və qayğının növbəti təcəssümü olan Fərman və görüş ictimaiyyətimiz tərəfindən də çox yüksək dəyərləndirilir”.**

## Deputat: Prezident İlham Əliyev şəhid ailələrinə, müharibə veteranlarına daim diqqət və qayğı göstərib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşdü. Şəhid ailələrinin nümayəndələrinə dərin hörmətini ifadə edən Prezident İlham Əliyev şəhidlərimizə Allahdan rəhmət dilədi, onların torpaq, Vətən uğrunda həlak olaraq şəhidlik zirvəsinə yüksəldiyini dedi. Prezident İlham Əliyev şəhid anasının ayağa qalxmasına izin vermədi, Özü onun yanına getdi və bir daha şəhidlərimizin və onların ailələrinin bizim üçün nə qədər dəyərli olduğunu nümayiş etdirdi. Milli birliyimizi də, torpaqlarımızın azad olunmasını da, Vətənimizin bölünməzliyini də təmin edəcək mənəviyyat budur. Ona görə də ərazi bütövlüyümüzün bərpa olunacağı gün uzaqda deyil.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Deputat deyib: **“Ali Baş Komandanımız bir daha qətiyyətlə bəyan etdi ki, Azərbaycan xalqı və dövləti heç vaxt bu işğalla barışmayacaq. Doğrudan da ötən illər ərzində həyata keçirilən müstəqil siyasət güclü iqtisadiyyatımızın yaranmasına, beynəlxalq münasibətlər sistemində ölkəmizin yerinin və rolunun möhkəmlənməsinə gətirib çıxarıb ki, bunlar da ərazi bütövlüyümüzün bərpa olunması üçün real geostrateji şərtlər formalaşdırıb. Əlbəttə, buna nail olmaq, ənənəvi geosiyasi balansı ölkəmizin lehinə dəyişmək hazırkı beynəlxalq şərtlər daxilində olduqca çətin bir işdir, ancaq Azərbaycan buna nail olmağı bacarıb”.**

Hikmət Babaoğlu qeyd edib ki, Prezident İlham Əliyevin diqqəti daim şəhid ailələrinin, müharibə veteranlarının və onların ailələrinin üzərində olub. Hər şeydən öncə məhz xalqımızın qürur yeri olan bu ailələrin problemlərinin həlli əsas sosial prioritet kimi müəyyənləşdirilib. Təsadüfi deyil ki, bu vaxta qədər belə vətəndaşlara 6654 mənzil, 6144 avtomobil, o cümlədən ötən il isə 626 mənzil verilib. Bu il həmin vətəndaşlara azı 800 mənzilin təqdim olunması nəzərdə tutulur. Şəhid ailələrinə və müharibə əlillərinə, Milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bununla da şəhid ailələrinin sosial müdafiəsi ildən-ilə yaxşılaşıb, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanıb.



Elə keçən il də Prezident İlham Əliyev şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı Fərman imzaladı. Həmin Fərmana əsasən, 10 minə yaxın şəhid ailəsinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutuldu və artıq bu proses çərçivəsində 3 mindən çox şəhid ailəsinə vəsait verilib. Prezident İlham Əliyevin şəhid ailələri ilə bağlı imzaladığı yeni Fərmana əsasən isə daha çox şəhid ailəsi birdəfəlik müavinət alacaq ki, bu da şəhidin hansı statusda xidmətə çağırıldığı və hansı şəraitdə öz həyatını Vətən üçün fəda etməsindən asılı olmayaraq hər birinin Azərbaycan dövləti və xalqı üçün son dərəcə dəyərli olmasının sübutudur.

## Azərbaycan gənclərindən ibarət nümayəndə heyətinin Avropa Şurasına təhsil səfəri təşkil olunub

Strasburqda “Azərbaycan Respublikasının gənc mütəxəssislərinin Avropa Şurasına təhsil səfəri” adlı tədbir keçirilib.

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasından AZƏRTAC-a bildiriblər ki, tədbirin məqsədi iştirakçıları Avropa Şurasının gənclər siyasətindəki yeniliklərlə bağlı məlumatlandırmaq və ölkəmizlə əlaqələri daha da gücləndirmək olub.



Səfərdə Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin məsləhətçisi Aydan Kərimli, Gənclər Fondunun gənclər təşkilatları ilə iş şöbəsinin müdiri Seymur Hüseynov, beynəlxalq əməkdaşlıq və donorlarla iş şöbəsinin mütəxəssisi Elmira Allahverdiyeva, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Faiq Məmmədov və Şuranın beynəlxalq əlaqələr üzrə katibi Aydın Mehdiyev iştirak ediblər.

Tədbirin birinci günündə Azərbaycanın nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasının açılış mərasimində iştirak edib. Avropa Şurasının binası ilə tanış olan azərbaycanlı gənclərə bu qurumun və onun gənclərlə iş üzrə departamentinin fəaliyyəti haqqında ətraflı məlumat verilib.

Sonra Avropa Gənclər Mərkəzinin direktoru ilə görüşən nümayəndə heyəti səmərəli müzakirələr aparıb. Azərbaycan nümayəndə heyətinin üzvləri, həmçinin gənclər sahəsində tanınmış peşəkar təlimçilərin - Marina Filaretovanın, Tina Mulkahinin, Antye Rothemundun seminarlarında, İnsan Hüquqları üzrə Avropa Məhkəməsində, eyni zamanda, Avropa Parlamentində də olublar.

# Azərbaycan Prezidentindən xalqa xidmətin növbəti nümunəsi



Azərbaycanda həyata keçirilən uğurlu dövlət siyasətinin mərkəzində insan, vətəndaş amili dayanır. Atılan bütün addımlar, reallaşdırılan innovativ islahatlar insanların sosial rifahının daha da yaxşılaşdırılmasına, sosial müdafiəsinin etibarlı şəkildə təmin edilməsinə istiqamətlənib. Son illər Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan Fərman və sərəncamlara diqqət yetirsək, onların əksəriyyətinin sosial xarakterli olduğunu görərik. Şəhid ailələrinə diqqət və qayğı isə dövlətimizin başçısının xüsusi olaraq nəzarətindədir. Elə bunun nəticəsidir ki, indiyə qədər bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil, 6144 avtomobil, 2018-ci ildə isə 626 mənzil verilib. Bu il, həmçinin bu kateqoriyadan olan vətəndaşlara azı 800 mənzilin verilməsi planlaşdırılır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu günlərdə Prezident Sarayında şəhid ailələri ilə görüşü onlara olan diqqət və qayğının bariz nümunəsidir. Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib: **“Azərbaycan xalqına xidmət etmək mənim üçün böyük şərəfdir. Prezident kimi həmişə çalışmışam ki, xalqıma ləyaqətlə xidmət edim, Azərbaycanın hərtərəfli inkişafına təkan verim”.** Dövlətimizin başçısının bu fikirləri xalqa xidmət nümunəsinin parlaq təzahürüdür. Dövlətimizin başçısı bununla bir daha hər bir azərbaycanlının Prezidenti olduğunu sübut etdi, şəhid ailələri və bu kateqoriyadan olan insanların daim dövlətin diqqət mərkəzində olduğunu göstərdi. Hesab edirəm ki, bu amil xalq-iqtidar, xalq-Prezident birliyini daha da möhkəmləndirir, onu daha güclü və sarsılmaz edir.

“İki sahil” qəzetinin baş redaktoru vurğulayıb ki, bu günlərdə Azərbaycan Prezidentinin ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında imzaladığı növbəti Sərəncamı bu kateqoriyadan olan insanlar, eyni zamanda, xalq tərəfindən böyük sevinc və minnətdarlıqla qarşılandı: **“Sərəncama əsasən, ərazi bütövlüyümüz, müstəqilliyimiz və konstitusiya quruluşumuzun müdafiəsi ilə bağlı əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin davam etdirilməsinə 35 milyon manat ayrıldı. Doğrudan da bu, böyük diqqətdir, qayğıdır. Düşünmürəm ki, dünyanın hansısa ölkəsində vətəndaşa bu qədər qayğıkeş münasibət olsun. Hesab edirəm ki, möhtərəm Prezidentimizin atdığı növbəti humanist addımlar onun xalqın qəlbindəki yerini daha əziz, əvəzedilməz edir, dünyaya əsl dövlət başçısı nümunəsini göstərir”.**

# Avropa Parlamentinin ikili standartlarının daha bir nümunəsi

*Yaxud AP və digər beynəlxalq qurumlar Ermənistanda jurnalist və siyasətçinin ölümünü görməzdən gəlirlər*



Məlum olduğu kimi Yerevanın Nubaraşrn təcridxanasında saxlanılan Haynews.am sartının rəhbəri və "Erməni qartalları: Vahid Ermənistan" partiyasının sədr müavini Mqer Yeqiazaryan dünyasını dəyişib. Məlumat üçün bildirək ki, M.Yeqiazaryan siyasi fəaliyyətinə görə hakimiyyətin hədəfində olub və qondarma ittihamlarla həbs edilib. O, ötən il dekabrın 5-dən həbsxanada aclıq elan etmişdi.



***Sevinc Fətəliyeva:***
*Olmayan bir məsələyə görə Azərbaycanı hədəfə götürən AP Ermənistanda baş verənlərə göz yumur*

Ermənistan mətbuatı yazır ki, artıq ölkə daxilində bu hadisəyə görə baş nazir Nikol Paşinyanın istefası tələbi də səsləndirilir. Məlumatlarda o da bildirilir ki, M.Yeqiazaryan siyasi fəaliyyətinə görə hakimiyyətin hədəfində olub və qondarma ittihamlarla həbs edilib. M.Yeqiazaryanın ölümündə indiki hakimiyyətin, xüsusilə baş nazir N.Paşinyanın günahlandırılması da səbəbsiz deyil. Bu hadisənin 10 günə yaxın gizlədilməsi, bununla belə onun aclıq aksiyası keçirdiyi müddət ərzində hakimiyyətin müvafiq qurumları tərəfindən heç bir reaksiyanın verilməməsi və aksiyanı dayandırmaq, ən azından onun ölümünün qarşısını almaq üçün məcburi tədbirlər görülməməsi bu qəbildən olan haqlı narazılıqlardandır.

Həbsxanada aclıq aksiyası elan edən siyasətlə, eyni zamanda, jurnalist fəaliyyəti ilə məşğul olan bu şəxsin ölümünə görə erməni mətbuatı tərəfindən N.Paşinyan ciddi tənqid atəşinə tutulsa da, baş nazir susmağı üstünlük verir. Bunun müqabilində Paşinyan keçirdiyi son toplantıların birində konkret şəkildə olmasa da, üstüörtülü olaraq onun siyasətinə qarşı hər hansı şəkildə etiraz edənlərə və aksiya keçirənlərə, onun əleyhinə yazanlara xəbərdarlıq etməkdən də çəkinməyib. N.Paşinyanın özünü arxayın aparmasına səbəb isə çox güman ki, Avropa Parlamenti (AP) başda olmaqla, Qərbdəki bir sıra beynəlxalq qurumların Ermənistan hakimiyyətinin qanunsuz əməlləri qarşısında səssiz qalmasıdır.

Ermənistanda haqqında məhkəmə qərarı olmayan bir vətəndaşın, habelə siyasət və jurnalist fəaliyyəti ilə məşğul olan bir şəxsin ölümünə göz yumulmasına baxmayaraq, Qərbin, o cümlədən Azərbaycanda baş verən adi məişət hadisəsinə də reaksiya verən bəzi avropalı siyasətçilərin və qurumların susması, təbii ki, təəccüb doğurur. Ən azı ona görə ki, bu yaxınlarda M.Hüseynovun məsələsi ilə bağlı dayanmadan bəyanat verən Qərb siyasətçiləri, beynəlxalq təşkilatların nümayəndələri, beynəlxalq QHT-lər və mətbuat orqanları Ermənistanda baş verənlərin üstündən sükutla keçməyi üstün tuturlar. Bu isə başda AP olmaqla bir sıra beynəlxalq qurumların ikiüzlü siyasətindən xəbər verir.

Məsələ ilə bağlı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsnin sədr müavini, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva bildirib ki, Avropadan Ermənistanda baş verən hadisələrə reaksiya göstərilməməsi, bizim üçün bu prinsipcə, təəccüblü deyil. Çünki biz bunu uzun illərdir müşahidə edirik. Onun sözlərinə görə, bütün Avropa strukturları, beynəlxalq təşkilatlar Ermənistanın keçmiş rəhbərliyinin fəaliyyətinə də göz yumublar: **"Amma Azərbaycan daim müxtəlif beynəlxalq təşkilatların hədəfində olub və ölkəmizdə baş verən hər hansı bir siyasi proses həmişə mikroskop altında araşdırılıb".**

Millət vəkili deyib ki, Avropanın və beynəlxalq strukturların Ermənistandakı cinayətlərə laqeydliyi, ilk növbədə, ənənəvi olaraq erməni lobbisinin oynadığı roldan asılı olub: **"Bunu bir çox beynəlxalq strukturlarda erməni fitvası ilə fəaliyyətlərini davam etdirən siyasətçilərin təmsil olunması və onların bir çox siyasi proseslərdə açıq-aşkar həqiqətə göz yumması bir daha sübut edir. Əgər Avropa Parlamenti və digər qurumlar həbsdə olan bir jurnalistin ölümü qarşısında səssiz qalırsa, bu hal ilk növbədə onu deməyə əsas verir ki, beynəlxalq qurumlar Ermənistanda baş verən hadisələrə laqeyd yanaşır".**

Bu yaxınlarda M.Hüseynovun məsələsi ilə bağlı bəyanatlarla çıxış edən Qərb siyasətçiləri, beynəlxalq QHT-lər və media orqanlarının Ermənistanda siyasətçinin təcridxanada ölümü qarşısında susmasına gəlincə, S.Fətəliyeva deyib: **"Fırıldaqçılıqdan soyğunçuluğa qədər Azərbaycanda hər hansı bir cinayət "siyasi" kimi qələmə verilə bilər. Əgər bu tipli hadisə Azərbaycanda baş versəydi, onda bunun nə dərəcədə rezonansa səbəb olacağını və bir dəqiqə ərzində beynəlxalq qurumların hansı bəyanatlar qəbul edəcəyini təsəvvür etmək çətin olmaz. Bir sözlə, olmayan bir məsələyə görə Azərbaycanı hədəfə götürən AP Ermənistanda baş verənlərə göz yumur".**

Deputat bildirib ki, beynəlxalq qurumlar Azərbaycana qarşı həmişə manipulyasiya və təzyiq yollarını axtarmağa çalışırlar.

**"Avropada özünü demokrat, insan hüquqlarının keşikçisi sayan insanların və qurumların əsl mahiyyəti Ermənistanda baş verən hadisələrlə bir daha üzə çıxdı. Onların əsl xisləti ikiüzlülükdür".** Bu fikirləri isə Milli Məclisin deputatı Elman Nəsirov deyib.



***Elman Nəsirov:***
*Avropada özünü demokrat, insan hüquqlarının keşikçisi sayan insanların və qurumların əsl mahiyyəti Ermənistanda baş verən hadisələrlə bir daha üzə çıxdı*

E.Nəsirov bildirib ki, Yerevanda bir siyasətçinin aclıq aksiyası keçirməsi və ölümü nə Ermənistan hakimiyyətini, nə də beynəlxalq insan hüquqlarından dəm vuran təşkilatları narahat edib: **"Mehman Hüseynov məsələsi ilə bağlı Avropa Parlamenti tələsik toplanaraq, anti-Azərbaycan qətnaməsi qəbul etdi. Bu qətnamə Azərbaycanda guya demokratiya və insan haqları sahəsində çox ciddi pozuntuların olması ilə bağlı qərəzli, əsassız ittihamlarla dolu idi. Lakin Ermənistanda artıq jurnalist aclıq aksiyasının nəticəsi olaraq dünyasını dəyişir, aclıq aksiyası onun ölümü ilə yekunlaşır, amma bununla bağlı beynəlxalq təşkilatlardan, insan hüquqlarından dəm vuran qurumlardan səs çıxmır. Azərbaycan əleyhinə Avropa Parlamentində tələsik qətnamə qəbul edənlərdən biri bununla bağlı öz etirazını bildirmir, heç bir dinləmə keçirilmir. Avropa Şurası Parlament Assembleyası susmaqdadır, dünyanın qeyri-hökumət təşkilatları da müəmmalı şəkildə bu hadisəyə münasibət bildirmir. Onda sual yaranır ki, bu selektiv yanaşmanın kökündə nə dayanır? Təbii ki, Azərbaycan tərəfi bu məsələ ilə bağlı mövqeyini həmin qurumlara çatdırır".**

Millət vəkilinin sözlərinə görə, ikili standartlar bu gün dünya siyasətinə sırınmaqdadır: **"Bu yanaşmanın əsas səbəbi odur ki, müsəlman ölkəsi olan Azərbaycanın bu qədər inkişafını həmin qüvvələrin gözləri götürmür. Azərbaycan öz hədəflərinə çatır və müsəlman dünyasında sabitlik adası kimi tanınır. Ölkəmiz bu gün təhlükəsizlik məkanıdır. Bütün bu uğurların kökündə də Azərbaycanda xalq və hakimiyyətin birliyi dayanır. Bunları gözü götürməyən islamofob, ksenofob, irqçi qüvvələr Azərbaycanda Mehman Hüseynov amilindən siyasi təzyiq vasitəsi kimi istifadə etmək istəyirdi. Onların əsas xisləti, hesab edirəm ki, Ermənistandakı son hadisə ilə bir daha üzə çıxdı".**

**Nardar BAYRAMLI**

# Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə şəhid ailələrinə hərtərəfli diqqət və qayğı göstərilir



***Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü Musa Quliyev www.yap.org.az saytına müsahibə verib:***

**- Musa müəllim, məlumdur ki, ölkəmizdə uğurlu sosial siyasət həyata keçirilir. Bu baxımdan, Azərbaycanda şəhid ailələrinə göstərilən dövlət qayğısı haqqında fikirlərinizi bilmək istərdik...**

- Ümumiyyətlə, şəhid ailələrinə dövlət qayğısının göstərilməsi Azərbaycanın daxili siyasətində prioritetdir. Bu, Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi-mənəvi yoldur. Xatırladım ki, Ulu öndərimizin təşəbbüsü ilə "Şəhid adının əbədiləşdirilməsi haqqında" qanun qəbul olunmuşdu və bu qanun məhz Heydər Əliyevin 1993-cü il 3 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdi. Bütövlükdə, Ümummilli liderimiz Heydər Əliyevin siyasətində şəhid ailələrinə dövlət qayğısı xüsusi yer tutmuşdur.

Hazırda Prezident İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir. 2003-cü ildən indiyə qədər bu istiqamətdə görülən işlər bunu sübut edir. Bilirsiniz ki, ötən il keçirilmiş prezident seçkilərindən sonra dövlət başçısı İlham Əliyevin imzaladığı ilk Fərman şəhid ailələri ilə bağlı oldu. Yəni Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə şəhid ailələrinə hərtərəfli diqqət və qayğı göstərilir. İndiyə qədər 7 minə qədər şəhid ailəsi mənzillə təmin olunub. Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı Prezident təqaüdü verilir. Eyni zamanda, şəhid adının əbədiləşdirilməsi ilə bağlı addımlar atılır, onların əziz xatirəsi daim yad edilir.

**- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşüblər. Sizcə, bu görüşün əhəmiyyəti nədən ibarətdir?**

- Bu görüş bir daha göstərdi ki, Prezident İlham Əliyev şəhid ailələrinə nə qədər böyük qayğı, hörmət və ehtiram göstərir. Bu görüşün sosial-siyasi əhəmiyyəti ilə yanaşı milli-mənəvi, vətənpərvərlik baxımından da çox böyük önəmi var. Görüş zamanı dövlət başçısı vətəndaşların sosial məsələlərinin bundan sonra da diqqət mərkəzində olacağını bildirdi. Cənab Prezident xüsusilə vurğuladı ki, Azərbaycan xalqı şəhidlərimizlə fəxr edir, şəhidlərimiz daim bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaqdır. **"Azərbaycan xalqına xidmət etmək mənim üçün böyük şərəfdir. Prezident kimi həmişə çalışmışam ki, xalqıma ləyaqətlə xidmət edim, Azərbaycanın hərtərəfli inkişafına təkan verim",** - deyən ölkə başçısı ölkəmizdə vətəndaşların sosial rifahının daim diqqət mərkəzində olduğunu vurğulayıb.

Görüşdə şəhid ailələrinə dövlət tərəfindən verilən dəstək bir daha vurğulandı. Qeyd olundu ki, bu günə qədər 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillər, evlər, 6 mindən çox şəhid ailəsinə minik avtomobilləri verilib. Yəni bu, dövlətimizin şəhid ailələrinə olan münasibətinin təzahürüdür. Bu proses davamlı olacaq. Ümumiyyətlə, cənab Prezidentin fikirləri bütün cəmiyyətimiz üçün mesajdır ki, hər kəs şəhid ailələrinə hörmətlə yanaşmalıdır.

**- Dövlətimizin başçısı yanvarın 28-də "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb. Bu Fərman bütün cəmiyyətimiz tərəfindən yüksək dəyərləndirilir...**

- Dövlət başçısının imzaladığı bu Fərmanla çox ciddi məsələ öz həllini tapır. Bilirsiniz ki, 1997-ci ildə "Həqiqi hərbi qulluqçuların icbari sosial sığortası haqqında" qanun qəbul olunub. Və bundan sonra şəhid olan hərbi qulluqçuların ailələri qanuna uyğun olaraq sosial sığorta haqqı alıblar. Amma o vaxta qədər şəhid olanların problemi qalmışdı. Yəni cənab Prezidentin ötən ilin aprel ayında imzaladığı Fərmanla 1997-ci ilə qədər şəhid olmuş həqiqi hərbi qulluqçuların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsi nəzərdə tutulur. Bu Fərmana əsasən 10 minə yaxın şəhid ailəsinin siyahısı dəqiqləşdirildi, 11 min manat birdəfəlik ödəmə üçün ötən il 58 milyon manat vəsait ayrıldı və bu il 50 milyon manatın ayrılması nəzərdə tutulur. Artıq həmin qərara uyğun olaraq birdəfəlik ödəmənin verilməsinə başlanıb və bu il də proses davam edəcək.

1997-ci ildə sözügedən qanun qəbul olunandan sonra şəhid ailələrinə verilən birdəfəlik ödəmənin məbləği isə xeyli az idi. Ona görə də, cəmiyyətimizdə bununla bağlı müxtəlif fikirlər səslənirdi. Görüş zamanı cənab Prezident söylədi ki, bizim siyasətimiz iki mühüm əsasa söykənir. Bu, qanunçuluq və sosial ədalətdir. Dövlət başçısının 28 yanvar tarixində imzaladığı Fərmanla həm qanunçuluq, həm də sosial ədalət təmin olundu. Beləliklə, 1997-ci ildən sonra az məbləğdə sığorta haqqı alan 2725 nəfərə də 11 min manat birdəfəlik ödəmə veriləcək. Eyni zamanda, o dövrdə ərazi bütövlüyünün qorunması zamanı şəhid olmuş 460-dan çox polis ailələri də dövlətin qayğısından yararlanaraq bu vəsaiti alacaq.

Artıq Fərmanın icrası ilə bağlı işlər başlanıb. Dövlət başçısının Fərmanının icrası ilə bağlı müvafiq dövlət qurumlarına tapşırıqlar verilib. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev Azərbaycanda əhalinin sosial rifahının yüksəlməsi məsələsinə böyük həssaslıqla yanaşır, o cümlədən şəhid ailələrinə daim qayğı göstərir.

# Radikal ünsürlər anti-Azərbaycan dairələrin sifarişlərini yerinə yetirir

*Əli Kərimli kimi xəyanətkar şəxslər 1992-ci ilin qaragüruh psixologiyasını geri qaytarmağa çalışır*



Cənubi Qafqaz regionunun ən inkişaf etmiş ölkəsi olan Azərbaycanın son illərdə əldə etdiyi uğurlu inkişafın əsasında düzgün siyasətlə yanaşı sabitlik amili də dayanır. 1993-cü ilin iyununda Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra bərpa olunan sabitlik müasir, qüdrətli və iqtisadi cəhətdən inkişaf etmiş Azərbaycanda geniş quruculuq prosesinin həyata keçirilməsinə imkan verdi.

Bu gün müstəqil Azərbaycan qlobal miqyaslı layihələrin təşkilatçısı və iştirakçısı qismində çıxış etməklə dünya ölkələri və beynəlxalq birlik tərəfindən yaxın tərəfdaş qismində tanınır, qəbul edilir. Bu isə ölkəmizin iqtisadi inkişafı ilə yanaşı, digər məsələlərdə, ən əsası Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində mühüm rol oynayır.

Təəssüf ki, ölkəmizin gündən-günə güclənməsi, nəinki regionda, daha böyük bir coğrafiyada söz sahibinə çevrilməsi və müstəqil xarici siyasət kursu yürütməsi bir sıra maraqlı xarici qüvvələrə xoş gəlmir. Həmin dairələr ölkəmizdə öz maraqlarını təmin etmək, stabilliyi pozmaq, o cümlədən Azərbaycana qarşı çirkin kampaniyalar aparmaq üçün isə hər zaman olduğu kimi radikal müxalifət düşərgəsinə "güvənir". Lakin bu gün özlərini "milli təəssübkeş", "demokratiya carçıları" kimi qələmə verərək gənc nəsli çaşdırmağa çalışan radikal ünsürlər vaxtilə törətdikləri əməllərin unudulduğunu zənn etsələr də, bu belə deyil. Azərbaycan xalqı 1992-ci ildə hakimiyyətə yiyələndikləri dövrdə dağıdıcı ünsürlərin ölkədə hansı anti-demokratik rejim qurduğunu, xalqın sərvətlərini taladıqlarını, Dağlıq Qarabağın işğalına rəvac verdiklərini unutmayıb.

Qeyd olunduğu kimi, bu ara qarışdırmaq istəyən, ölkəmizdəki siyasi sabitliyi pozmağa, iqtisadi inkişafa maneə törətməyə çalışan qüvvələrin kimliyi, onların məqsədləri, bu qüvvələrin hakimiyyətdə olduqları dövr hər kəsin yaddaşındadır. Qanunsuzluğun hökm sürdüyü, vətəndaşların ehtiyac içində yaşadığı, AXC-"Müsavat" hakimiyyətinin funksionerlərinə xidmət göstərən silahlı qruplaşmaların törətdikləri cinayət əməllərinin ört-basdır edilməsi həmin dövrün əsl mənzərəsini ortaya qoyan komponentlərdəndir. Xalqı silahlı təhdid ilə idarə etməyə üstünlük verən bu insanlar o zamanlarda da maraqlı xarici qüvvələrin əmrlərini yerinə yetirirdilər. Bunun nəticəsi idi ki, bir sıra xarici ölkələrin maraqlı dairələri AXC-"Müsavat" hakimiyyətinin ayrı-ayrı nümayəndələrinə "arxa çıxır", onların hakimiyyətdəki mövqelərini dəstəkləyirdilər. Təbii ki, xalqımız bütün bu eybəcərlikləri, AXC-"Müsavat" hakimiyyətinin səriştəsizliyindən, ən əsası isə ölkənin mənafeyini xarici maraqlara satmaq təhlükəsindən qurtararaq onları hakimiyyətdən saldı.

Həmin dövrdə xarici dairələrin sifarişlərini yerinə yetirən dağıdıcı ünsürlər bu gün də onların əmrləri və direktivləri ilə ölkəmizdəki sabitliyi pozmağa cəhd göstərir, xaos yaratmaq istəyirlər, Azərbaycana qarşı aparılan çirkin kampaniyalarda yer alır, ermənipərəst mövqedən çıxış edirlər. Keçirməyə cəhd göstərdikləri aksiyalar da məhz bu arzuları reallaşdırmaq üçündür. Amma hər zaman olduğu kimi, yenə də bu qüvvələr fiaskodan qaça bilmirlər. Radikal müxalifət partiyalarının və onların ətrafında olan təşkilatların keçirdiyi mitinqlər, aksiyalar onların zəifliyini, cəmiyyət tərəfindən dəstəklənmədiyini nümayiş etdirir. Radikal müxalifət partiyalarının başçılarının və funksionerlərinin çıxışları isə göstərir ki, onlar cəmiyyətə yeni, faydalı, konstruktiv heç nə təklif edə bilmirlər. 25 ildən çoxdur dəyişməyən eyni simalar, eyni şüarlar, eyni populist və mənasız çağırışlar, əsassız ittihamlar, yalan vədlər, çıxışçıların qulaq yorucu səs tembrləri yenidən təkrarlanır. AXC-nin şinelindən çıxmış və bu gün də müxalifət "post"unu zəbt etmiş şəxslərin çıxışları, irəli sürdükləri iddialar isə bir daha təsdiq edir ki, onlar hələ də revanşizm ab-havasındadırlar, dağıdıcılıq, sabitliyin pozulması yolu ilə hakimiyyəti zəbt etmək niyyətindən əl çəkməyiblər. Çünki hələ də 1990-cı illərin qaragüruhçuluq ab-havası ilə yaşayırlar.

Bu gün Əli Kərimli kimi marginallaşmış, milli maraqları tapdaq altına atan, xəyanətkar şəxslərin siyasətçi obrazına girib, meydana çıxıb özlərini müxalifətin lideri adlandırması bütövlükdə cəmiyyətimiz üçün qəbuledilməz, müxalifət, digər müxalif partiyaların rəhbərləri üçün isə aşağılayıcı faktordur. Görəsən, Əli Kərimlinin mitinqdə bəyan etdiyi liderlik iddialarına digər müxalifət partiyaları rəhbərlərinin, funksionerlərinin münasibəti necədir?

Maraqlıdır ki, Əli Kərimli və onun başıpozuq, marginallaşmış dəstəsi hakimiyyətin onlardan "qorxduğunu" iddia edəcək qədər düşüncəsizdirlər. Hakimiyyət uzun müddət təbliğat aparıb, bütün güclərini səfərbər edib meydana cəmi 3 minə yaxın adam yığa bilən siyasətbazlardan niyə qorxmalı və çəkinməlidir?! Kim iddia edə bilər ki, bu kimi qabiliyyətsiz, gücsüz, aciz adamlar və onların ətrafındakılar hakimiyyətə alternativ ola və əzələ nümayiş etdirə bilərlər? Təbii ki, cəmiyyət belə qüvvələrin əsl məqsədlərini unutmamalı, gənc nəsil xarici güclərin dəstəyi ilə hakimiyyət iddiasını reallaşdırmaq istəyənlərin keçmişi haqqında həqiqətləri bilməlidirlər ki, onların apardıqları çirkin oyunların "oyunçusu"na çevrilməsinlər.

**Pərviz SADAYOĞLU**

# Ümid qəsəbəsi yeni sakinlərini qarşılayır



Azərbaycan Respublikası Prezidentinin təsdiqlədiyi "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na əsasən, Bakı şəhərinin Qaradağ rayonunun Ümid qəsəbəsində ikinci mərhələ üzrə inşa edilmiş 300 ailəlik yeni yaşayış binaları da artıq ilk sakinlərini qəbul edib. Bu barədə AZƏRTAC-a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib.

Buraya, ilk növbədə, həyat üçün təhlükəli şəraitdə, ağır vəziyyətdə yaşayan məcburi köçkünlər köçürülüb. Belə ki, Qaradağ rayonunun Puta qəsəbəsində 11 saylı yataqxanada, 59 saylı hamamın binasında, 1 saylı mədən evində, Sahil qəsəbəsindəki ATS binasında, hərbi şəhərcikdəki tikililərdə, Qobustan rayonundakı keçmiş avtobazanın inzibati binasında və qarajında, 8 saylı yol-istismar idarəsinin inzibati binasında və Ələt qəsəbəsindəki hərbi şəhərcikdə müvəqqəti məskunlaşmış 188 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunub. Ümid qəsəbəsinə köçürülənlər, əsasən Laçın, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl və Şuşadan olan məcburi köçkünlərdir. Yeni mənzillərə köçürülmə davam edir.

Xatırladaq ki, Ümid qəsəbəsinin əsası qaçqın və məcburi köçkünlər üçün 1999-cu ildə tikilmiş 110 fərdi yaşayış evinin istifadəyə verilməsi ilə qoyulub. Dövlət proqramına uyğun olaraq, 2014-cü ildə qəsəbədə birinci mərhələdə 200 məcburi köçkün ailəsi üçün beşmərtəbəli 3 bina, 220 şagird yerlik məktəb binası tikilib istifadəyə verilib. İkinci mərhələdə isə ərazidə yaşayış binalarından əlavə, 140 uşaq yerlik bağça, inzibati bina, tibb məntəqəsi, klub-icma mərkəzi və qazanxana inşa edilib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məcburi köçkünlərin sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilir. Zəruri infrastrukturu olan yaşayış kompleksləri, qəsəbələr tikilib istifadəyə verilir, hər il minlərlə köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin edilir.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva Bakı və Sumqayıt şəhərlərində hələ də ağır vəziyyətdə, qəzalı və yararsız binalarda yaşayan məcburi köçkünlərin birinci növbədə yeni mənzillərə köçürülməsi məsələsini nəzarətdə saxlayır, bu barədə verilmiş tapşırıqlar davamlı şəkildə icra olunur.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Regionlarda müasir təhsil infrastrukturunun yaradılması işləri uğurla davam etdirilir

## *2019-cu ildə respublikamızda 100-dən çox məktəbin tikintisi nəzərdə tutulur*




(əvvəli ötən sayımızda)

Məktəb binasının su, qaz, elektrik xətləri, dam örtüyü, qapı-pəncərələri və döşəməsi yenilənib, isitmə sistemi qurulub, sinif otaqları, fənn kabinetləri, kitabxana, idman və akt zalları, dəhliz və digər yardımçı otaqlar, demək olar ki, yenidən tikilib. Hazırda təhsil ocağında son tamamlanma işləri görülür, ərazi abadlaşdırılır, futbol və voleybol meydançaları tikilir. Yaxın günlərdə məktəbdə inventar və avadanlıqların quraşdırılmasına başlanılacaq. Bu işlər başa çatdıqdan sonra məktəb binası tam yeniləşmiş vəziyyətdə müəllim və şagirdlərin istifadəsinə veriləcək.

Xaçmaz şəhərində isə 432 şagird yerlik ikimərtəbəli məktəb binasının inşasına başlanılıb. Bəybala Rəsulov adına Xaçmaz şəhər 5 nömrəli tam orta məktəb üçün inşa olunan yeni bina növbəti tədris ilindən istifadəyə veriləcək. Otuz sinif otağından ibarət olacaq tədris ocağında bütün fənn kabinetləri, kitabxana, kompüter otağı, akt və idman zalları fəaliyyət göstərəcək. Təhsil müəssisəsi müasir istilik və işıqlandırma sistemi ilə təchiz ediləcək. Yeni məktəb binasının həyətində qazanxana və su çənləri də inşa olunacaq.

Təhsil Nazirliyinin 2 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəis müavini Fərhad Əmrahov bildirib ki, regionda təhsil müəssisələrinin tikintisi və yenidən qurulması işləri davam etdirilir. 2018-ci ildə şimal bölgəsinin altı rayonunda 20 yeni modul tipli məktəb binasının tikintisinə başlanılıb. Bu məktəblərdən 3-ü istifadəyə verilib.

Qax rayonunun Əlibəyli kəndində də tam orta məktəb üçün 216 şagird yerlik yeni binanın tikintisinə başlanılıb. Prezident İlham Əliyevin ötən il oktyabrın 29-da imzaladığı Sərəncama əsasən inşa edilən yeni məktəb binasının tikintisi üçün Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə ilkin olaraq 1 milyon manat ayrılıb. Rayon Təhsil şöbəsindən bildiriblər ki, Təhsil Nazirliyinin sifarişi ilə Tasmalı kəndində tam orta məktəb üçün inşa edilən 240 şagird yerlik yeni binanın tikintisi də sürətlə davam etdirilir. Binanın ikinci mərtəbəsində hörgü işləri artıq yekunlaşıb. Bundan əlavə, hazırda rayonun Fısdıqlı, Aşağı Malax və Çinarlı kəndlərində ümumi orta məktəblər üçün hər biri 80 şagird yerlik modul tipli binalar da quraşdırılır. Eyni zamanda, rayonun daha 4 kəndində qəzalı vəziyyətdə olan ümumi orta məktəblər üçün inşa edilən modul tipli binalarda tikinti-quraşdırma işləri artıq başa çatıb. İnşa edilən yeni məktəb binalarının 2019-cu ildə istifadəyə verilməsi nəzərdə tutulur.

Şəki şəhərindəki 11 saylı tam orta məktəb üçün də 960 şagird yerlik yeni binanın tikintisinə başlanılıb. Prezident İlham Əliyevin ötən il oktyabrın 29-da imzaladığı Sərəncama əsasən inşa edilən yeni məktəb binasının tikintisi üçün Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə ilkin olaraq 1 milyon manat ayrılıb. Şəki şəhər Təhsil şöbəsindən verilən məlumata görə, minə yaxın şagirdin təhsil aldığı məktəb indiyədək uyğunlaşdırılmış binada fəaliyyət göstərib. Yeni məktəb binasının bu ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulur.

Bundan başqa, Prezident İlham Əliyevin Sərəncamı ilə ayrılan vəsait hesabına İmişlinin Qızılkənd kənd tam orta məktəbi üçün yeni üçmərtəbəli bina inşa olunur. Artıq binanın bünövrəsi tökülüb, hörgü işləri aparılır. İnşa olunan 620 yerlik təhsil ocağında 24 sinif otağı olacaq. Məktəbdə şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılacaq. Təhsil ocağı müasir istilik sistemi ilə təchiz ediləcək və burada fənn kabinetləri, laboratoriyalar, yeməkxana, idman və akt zalları, kompüter otaqları fəaliyyət göstərəcək.

Binanın tikintisi yeni dərs ilinədək başa çatdırılacaq. Qeyd edək ki, hazırda rayonun Aranlı kənd 1 nömrəli tam orta məktəb binasının tikintisi və Muradxanlı kənd ümumi orta məktəbi üçün modul tipli binanın quraşdırılması da davam etdirilir.

Biləsuvar rayonunda isə bir əsrlik tarixi olan Nizami Gəncəvi adına 1 nömrəli şəhər tam orta məktəbi üçün yeni binanın tikintisinə başlanılıb. Bina ölkə başçısının müvafiq Sərəncamı ilə ayrılmış vəsait hesabına inşa olunur. İnşa edilən 1176 yerlik təhsil ocağında 54 sinif otağı olacaq. Təhsil ocağı müasir istilik sistemi ilə təchiz ediləcək və burada fənn kabinetləri, laboratoriyalar, 218 yerlik yeməkxana, idman və akt zalı, kompüter otaqları fəaliyyət göstərəcək. Bir sözlə, məktəbdə şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılacaq.

Qeyd edək ki, məktəb binasının tikintisi yeni dərs ilinədək başa çatdırılacaq.

Məlum olduğu kimi, son illərdə respubikamızda ənənəvi məktəb binalarının inşası ilə yanaşı, modul tipli məktəb binalarının quraşdırılması da həyata keçirilir. Modul tipli məktəb binalarının üstünlüyü onların azməsrəfli olması, qısa müddətdə istənilən relyefdə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun rahatlıqla azaldılıb-artırılmasıdır. Binaların tikintisində əsasən yerli istehsal olan məhsullardan istifadə edilir.

Hazırda laçınlı məcburi köçkünlərin məskunlaşdıqları Ağcabədi rayonunun Taxtakörpü ərazisində modul tipli üç məktəb binası quraşdırılır. Binaların tikinti-quraşdırma işləri Prezident İlham Əliyevin "Ağdam, Laçın, Füzuli və Tərtər rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında" 2018-ci il 16 fevral tarixli Sərəncamı ilə ayrılan vəsait hesabına həyata keçirilir.

Ağbulaq kənd tam orta məktəb üçün quraşdırılan bina 56, Sonasar və Katos ümumi məktəbləri üçün qurulan binalar isə 40 şagird yerlikdir. Tikinti-quraşdırma işlərinin bu ayın sonunadək başa çatdırılması nəzərdə tutulur. Məktəblər müasir avadanlıqlar və mərkəzləşdirilmiş istilik sistemi ilə təmin ediləcək, həyətlərində abadlıq işləri aparılacaq, yaşıllıqlar salınacaq.

Modul tipli məktəb binalarından ikisi isə hazırda Tərtər rayonunda quraşdırılır. Tikinti-quraşdırma işləri Prezident İlham Əliyevin "Ağdam, Laçın, Füzuli və Tərtər rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında" 2018-ci il 16 fevral tarixli Sərəncamı ilə ayrılan vəsait hesabına həyata keçirilir. Kovdadıq kənd tam ibtidai məktəbi üçün quraşdırılan bina 20, Zolgörən ümumi orta məktəbi üçün qurulan bina isə 56 şagird yerlikdir. Tikinti-quraşdırma işləri Təhsil Nazirliyinin sifarişi ilə aparılır. Artıq binaların bünövrəsi tökülüb və quraşdırma işləri görülür. Binalar müasir avadanlıqlar və mərkəzləşdirilmiş istilik sistemi ilə təmin ediləcək, həyətlərində abadlıq işləri aparılacaq, yaşıllıqlar salınacaq. Qeyd edək ki, ötən il Tərtər rayonunun Bayandur və Poladlı kəndlərində də modul tipli məktəb binaları quraşdırılıb.

Neftçala rayonunda da bu istiqamətdə xeyli iş görülüb. Son illər rayonda 15 yeni məktəb binası tikilib istifadəyə verilib, 3 bina isə əsaslı təmir olunub. Təkcə 2016-cı ildə rayonun ayrı-ayrı kəndlərində 5 modul tipli məktəb binası quraşdırılaraq şagirdlərin ixtiyarına verilib. Dövlətimizin başçısının Sərəncamı ilə ötən ildən başlayaraq rayonda modul tipli daha 7 məktəb binası quraşdırılır. Rayon Təhsil Şöbəsinin müdiri Əjdər Kərimov bildirib ki, məktəb binaları rayonun Mirzəqurbanlı, Pirəppə, Qaraqaşlı, Aşağı Sura, Xoltəzəkənd, Xolqaraqaşlı və Qazaxbərə kəndlərində inşa olunur. Ümumi orta məktəblər üçün nəzərdə tutulan binaların beşi 56, ikisi isə 80 şagird yerlikdir. Artıq Pirəppə və Qaraqaşlı kəndlərində 56 şagird yerlik ümumi orta məktəb üçün quraşdırılan tikililərdə inşaat işləri yekunlaşıb. Qalan 5 binanın tikintisində işlər sürətlə davam etdirilir. Məktəb binalarının inşası yeni dərs ilinə kimi başa çatdırılacaq.

Qəzalı vəziyyətdə olan ümumtəhsil müəssisələrinin modul tipli məktəblərlə əvəzlənməsi ilə bağlı Prezident İlham Əliyevin Sərəncamına müvafiq olaraq ölkəmizin bütün bölgələrində olduğu kimi, Lerik rayonunda da yeni məktəb binaları inşa edilir. Ötən tədris ilində Lerikdə modul tipli 5 məktəb binası quraşdırılaraq müəllim və şagirdlərin ixtiyarına verilib. Bu il isə rayonda bu tipli 10 məktəb binasının quraşdırılması nəzərdə tutulub.

Artıq yeni məktəblərin ikisi istifadəyə verilib. Hazırda rayonun Monidigah kəndində 1937-ci ildə tikilmiş məktəbin həyətində 96 şagird yerlik modul tipli məktəb binasının quraşdırılması davam etdirilir. Yeni məktəb binası fevral ayında istifadəyə veriləcək.

Təhsil Nazirliyinin sifarişi ilə Ağsu rayonunda isə üç kənd məktəbi üçün modul tipli bina quraşdırılır. Yeni binalar Ə.Eldarov adına Abasxanlı kənd tam orta və Sarvan kənd ümumi orta məktəblərinin hər biri üçün 96, Sanqalan kənd ümumi orta məktəbi üçün isə 40 şagird yerlik olacaq. Hər üç tədris ocağının gələn dərs ilinədək istifadəyə verilməsi nəzərdə tutulub. Binalar müasir inventar və avadanlıqla, habelə internet şəbəkəsi və kompüterlə təmin ediləcək, idman meydançaları salınacaq.

Onu da qeyd edək ki, Oğuz rayonunun Mollalı, Baş Daşağıl və Xaçmazqışlaq kəndlərində tam orta məktəblər üçün quraşdırılan hər biri 96 şagird yerlik modul tipli binalarda tikinti işləri artıq yekunlaşmaq üzrədir. Yeni məktəb binalarının yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulur. Oğuz rayon Təhsil şöbəsindən bildiriblər ki, bu təhsil ocaqları indiyədək uyğunlaşdırılmış və ya qəzalı vəziyyətdə olan binalarda fəaliyyət göstərib. Bundan əlavə, 2017-ci ildə rayonun Yemişənli və Qarabaldır kəndlərində ümumi orta məktəblər üçün hər biri 96, Xalxalqışlaq kəndində isə ibtidai məktəb üçün 20 yerlik modul tipli binalar quraşdırılaraq şagirdlərin istifadəsinə verilib. Ümumiyyətlə, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə son 10 ildə Oğuz rayonunda 17 yeni məktəb binası tikilib istifadəyə verilib, 3 modul tipli bina quraşdırılıb, 4 məktəb binası isə əsaslı təmir olunub.

**Nardar BAYRAMLI**

# Əlillərin yaradıcılığı "Əlillik qüsur deyil" kitabında işıqlandırılıb




Bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanan "Əlillik qüsur deyil" kitabı işıq üzü görüb. Xatırladaq ki, layihənin rəhbəri əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, layihənin koordinatoru və redaktoru Pərvanə İsmayılovadır.

Qeyd edək ki, kitabda Ümummilli lider Heydər Əliyevin fiziki məhdudiyyətli insanlara, onların sosial müdafiəsi və reabilitasiyasına diqqət və qayğısından, Prezident İlham Əliyevin sosial siyasət sahəsində həyata keçirdiyi uğurlu siyasətdən, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə əlilliyi olan şəxslərin sosial təminatı, reabilitasiyası və cəmiyyətə inteqrasiyası istiqamətində reallaşdırılan nəcib və xoşməramlı layihələrdən bəhs olunur.

Kitab nazirliyin nəzdində olan sosial müəssisələrdə yaşayanların yaradıcı fəaliyyəti, onların yaradıcılıq nümunələrini əks etdirən ilk nəşrdir. Nəşrdə, əsasən, yaradıcılıqla məşğul olan əlil şəxslərin haqqında məlumatlar və əl işləri yer alıb. Həm Azərbaycan, həm də ingilis dilində təqdim olunan 278 səhifəlik kitabın ərsəyə gəlməsi üçün 1500-dən çox foto çəkilib və foto-arxiv şəkillərindən istifadə olunub. Kitabda həmçinin incəsənətin müxtəlif növləri ilə məşğul olan 60-a yaxın fiziki məhdudiyyətli şəxsin fəaliyyəti və əl işləri ilə tanış olmaq mümkündür. Onu qeyd etmək lazımdır ki, kitabın qutusunun dizaynında əlilliyi olan Ramin Səfərlinin əl işindən fraqment istifadə edilib.

Kitabda həmçinin əlilliyi olan aktyorlardan ibarət ilk inklüziv teatr olan ƏSA Teatrı haqqında məlumata, teatrın afişalarından nümunələrə də yer verilib. Orada qeyd olunur ki, yeganə inklüziv teatr olan ƏSA Teatrı qısa zamanda fəaliyyətə başlamasına baxmayaraq, uğurlu tamaşalarla çıxış edib, öz dəst-xətti ilə ictimai rəğbəti qazanıb.

Xatırladaq ki, gələcəkdə "Əlillik qüsur deyil" kitabı əsasında əlilliyi olan yaradıcı şəxslərin elektron reyestrinin, eləcə də onlar üçün əl işlərinin satışı portalının yaradılması nəzərdə tutulur.

**QAŞQAY**

# AzerTelecom Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir

AzerTelecom

Hazırda 4-cü sənaye inqilabı şəraitində dünya ölkələrində iqtisadiyyatın rəqəmsallaşması və sürətli transformasiyası prosesləri gedir. Son 25 il ərzində aparılan fəaliyyətin nəticəsi olaraq regionun enerji və nəqliyyat mərkəzinə çevrilmiş Azərbaycan da artıq 4-cü sənaye inqilabının astanasındadır və iqtisadiyyatın rəqəmsallaşması, bilik iqtisadiyyatının qurulması və innovasiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi və ölkəmizin tranzit potensialının gücləndirilməsi istiqamətində son illər bir sıra mühüm layihələr icra edilir. Hazırda Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə şirkəti olan AzerTelecom Azərbaycanın regionun "Rəqəmsal Məkəz"inə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramının icrasına başlayıb.

### Azerbaijan Digital Hub proqramının əsas hədəfləri

"Azerbaijan Digital Hub" proqramının əsas hədəfi Azərbaycanın telekommunikasiya ekosisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə qalxması, ölkənin İnternetin alışında xarici ölkələrdən asılılığının minimuma endirilməsi, perspektivdə isə Azərbaycanın regionda İnternetin satışında mərkəzi ölkəyə çevrilərək, rəqəmsal xidmətlər idxal edən tərəfdən "Made in Azerbaijan" brendi altında bu xidmətləri istehsal və qonşu regionlara ixrac edən ölkəyə transformasiya olunmasıdır.

"Azerbaijan Digital Hub" proqramı çərçivəsində Azərbaycanın gələcəkdə Qafqaz, Yaxın Şərq, Orta Asiya və Cənub Asiya ölkələrini əhatə edən böyük bir regionun Rəqəmsal Mərkəzinə çevrilməsi bu regionlarda yaşayan 1.8 milyard əhalinin (dünya əhalisinin 1/4-i) müxtəlif rəqəmsal xidmətlərlə daha yaxşı təmin edilməsinə şərait yaradacaq. Ölkəmizin regionda İnternetin təkcə tranzitində deyil, həmçinin də satışında mərkəzi ölkəyə çevrilməsi isə dünyanın İnternet xəritəsinə London, Frankfurt, Sofiya, İstanbul, Moskva, Amsterdam və Dubay kimi İnternet Mərkəzlər ilə yanaşı Bakının da əlavə olunması deməkdir. Bu proqram həmçinin Rəqəmsal Mərkəzdə dünya brendlərinin (Apple, Google, Amazon, Alibaba, Facebook, Netflix və s.) cəmləşməsinə də şərait yaradacaq.

"Azerbaijan Digital Hub" proqramı nəticəsində Azərbaycanın Regionun Rəqəmsal Mərkəzinə çevrilməsi hazırda Çin hökumətinin təşəbbüskarı olduğu "Belt and Road Initiative" layihəsində Azərbaycanın da iştirakına töfhə verəcək. "Belt and Road Initiative" layihəsi Avropa, Asiya və Afrika ölkələrində infrastruktur inkişafı, investisiya yatırımlarını özündə ehtiva edir ki, Azərbaycan da "Rəqəmsal Mərkəz" kimi "Belt and Road Initative" qlobal layihəsinin bir hissəsinə çevrilir.

"Azerbaijan Digital Hub" proqramının reallaşması nəticəsində Şimal-Cənub, Şərq-Qərb istiqamətlərində olan böyük magistral fiber-optik şəbəkələr Azərbaycanda birləşəcək. Dünyanın qlobal tranzit magistral şəbəkələrinin Azərbaycanda kəsişməsi ilə yanaşı Azərbaycanda bu regionun ən böyük Data Mərkəzi də qurulacaq. AzerTelecom artıq "Azərbaycan Dəmir Yolları" QSC ilə birgə ölkə daxilində dəmiryol xətlərinin mühafizə zolağı boyunca yeni dayanıqlı magistral fiber-optik kabel infrastrukturunun tikintisinə başlayıb və müvafiq investisiya qoyuluşları həyata keçirilib. Bu imkan verir ki, Şərq-Qərb, Şimal-Cənub istiqamətlərində olan magistral xətlərin Azərbaycanda kəsişməsi reallaşsın.

### Proqram mühüm üstünlüklərə sahibdir

"Azerbaijan Digital Hub" proqramının ölkəmiz üçün mühüm üstünlükləri vardır. Yuxarıda qeyd olunanlarla yanaşı bu üstünlüklər həmçinin ondan ibarətdir ki, dövlət investisiyası cəlb olunmadan ölkə iqtisadiyyatının inkişafı üçün yeni imkanlar yaranacaq, regionda rəqəmsal logistik mərkəz qurulacaq, qeyri-neft sektoruna investisiyaların cəlb edilməsinə və onun inkişafına güclü təkan verilməklə rəqəmsal iqtisadiyyata töhfə veriləcək. Proqramın icrası elektron xidmətlərin inkişafına və ölkənin kiber-təhlükəsiziliyinin təmin edilməsinə də töhfə verəcək.

Həmçinin "Azerbaijan Digital Hub" proqramı çərçivəsində rəqəmsal sahədə yeni iş yerləri yaranacaq, hər-hansı intellektual beyinlərin axınının qarşısının alınması və xaricdə olan savadlı Azərbaycanlı mütəxəssislərin geri dönüşü üçün yeni imkanlar açılacaq və Azərbaycanda startapların inkişafı və onların ölkədə qalması üçün münbit bir ekosistem formalaşacaq. Proqram həmçinin kiçik və orta sahibkarlığın inkişafına və Azərbaycanda Rəqəmsal İqtisadiyyatın inkişafına töhfə verəcək.

# "Nar" Zərdabda yeni rəsmi mağazasını təqdim etdi




"Nar" bölgələrdə yaşayan sakinlərin rahatlığını və onlara göstərilən xidmət səviyyəsini daha da yüksəltmək məqsədilə mağazalarının sayını artırmaqdadır. Mobil operator növbəti rəsmi və yeni konseptə uyğun mağazasını Zərdab rayonunda təqdim edib. Müasir avadanlıqlarla təchiz edilmiş mağaza Zərdab rayonu, Azərbaycan prospektində yerləşir. Özünün müştəri yönümlülük və davamlı təkmilləşmə dəyərlərinə sadiq qalan "Nar", yeni dükanda müxtəlif təkliflərlə müştərilərinə xidmət göstərəcək. Mağazada müştərilərə nömrələr üzərində müxtəlif əməliyyatların həyata keçirilməsi, satışı, internet paketlərinin alışı, telefonların satışı ilə yanaşı, diler əməkdaşları tərəfindən digər yüksəkkeyfiyyətli müştəri xidmətləri göstəriləcək.

Yeni dükanın təqdimatı ilə əlaqədar olaraq yanvarın 29-u və 30-da hər bir müştəriyə "Nar" nömrə hədiyyə ediləcək. Bundan başqa, telefon və aksesuar alan alıcılara da hədiyyələr veriləcək.

Qeyd edək ki, "Nar" paytaxtla yanaşı, ölkənin regionlarına xüsusi diqqəti ilə seçilir və bölgələrdə yaşayan abunəçilərə yüksəkkeyfiyyətli mobil rabitə xidməti göstərir. Bu çərçivədə "Nar" xüsusi olaraq Azərbaycanın müxtəlif bölgələri üçün yaradılmış və abunəçilərə yaşadıqları bölgələrdə dəqiqəsi cəmi 1 qəpiyə danışmaq imkanı vermiş "Yerlim" tariflər toplusunu təqdim edib. Bu tariflə hər kəs yaşadığı bölgədə doğmaları, dostları, bir sözlə, bütün yerlilərinə dəqiqəsi cəmi 1 qəpiyə zəng etmək fürsəti qazanıb.

"Nar" mağazalarının ünvanı və xidmətləri haqqında ətraflı məlumatı nar.az/map internet səhifəsindən öyrənmək olar.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC", "Azadinform", "SİA"**
**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU